## Zakir Həsənov Rusiya sülhməramlılarının yeni komandanını qəbul edib



**Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan ərazisində müvəqqəti yerləşdirilən Rusiya sülhməramlı qüvvələrinin yeni komandanı general-mayor Andrey Volkovu qəbul edib.**

Müdafiə Nazirliyindən "Şərq"ə verilən məlumata görə, görüşdə Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Qarabağ iqtisadi zonasındakı əməliyyat şəraiti müzakirə olunub.

*Qeyd edək ki, general-mayor A.Volkovu general-leytenant Rüstəm Muradov təqdim edib.*

## Britaniya səfiri Qarabağ atlarından yazıb



**Böyük Britaniyanın Azərbaycandakı səfiri Ceym Şarp Qarabağ atlarından yazıb.**

Trend-in məlumatına görə, səfir "Twitter" səhifəsində bildirib:

"Bu il Kraliça II Yelizavetanın taxtda olmasının 70 illiyini qeyd edir. Kraliçanın atlara olan sevgisi hamıya məlumdur. Ona verilən hədiyyələr arasında 1956-cı ildə Zaman adlı məşhur Qarabağ atı da var. Qarabağ atları dəfələrlə Kral Vindzor At Şousunda çıxış ediblər".

❐ № 6 (5528), 2022-ci il

Qiymәti 40 qәpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 13 yanvar 2022-ci il (cümə axşamı)



# Novruz çərşənbələrinin vaxtı açıqlanıb

### Su çərşənbəsi fevral ayının 22-nə təsadüf edəcək

**Azərbaycanda Novruz çərşənbələrinin vaxtı məlum olub.**

N. Tusi adına Şamaxı Astrofizika Rəsədxanasından verilən xəbərə görə, bu ilin ilk çərşənbəsi - Su çərşənbəsi fevral ayının 22-nə təsadüf edəcək.

Martın 1-i Od, 8-i Yel (Hava), 15-i isə axırıncı - Torpaq çərşənbəsi qeyd olunacaq. (apa)

*Qeyd edək ki, yaz fəsli Azərbaycana martın 20-si saat 19:33-də daxil olacaq.*



## Bu gün KTMT qüvvələri Qazaxıstandan çıxarılacaq

### Bunu Tokayev Almatı şəhərində operativ qərargahın iclasında deyib

**Bu gün Qazaxıstandan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) sülhməramlı qüvvələrinin mütəşəkkil çıxarılması başlanılacaq.**

Bunu dünən Qazaxıstan prezidenti Kasım-Jomart Tokayev Almatı şəhərində operativ qərargahın iclasında deyib.

"Mənim müvafiq dövlətlərin rəhbərləri ilə danışıqlarım olub. Fürsətdən istifadə edərək mən bu bir neçə gün ərzində görülən işlərə görə sülhməramlı kontingentin komandanlığıa təşəkkürüm bildirmək istəyirəm. KTMT sülhməramlı kontingentinin Qazaxıstanda, o cümlədən Almatıda olması vəziyyətin sabitləşməsində böyük rol oynadı və terrorçuların təcavüzünün qarşısının alınmasında böyük psixoloji əhəmiyyətə malik oldu. Bu missiyanin fəaliyyəti uğurlu qiymətləndirilir", - deyə K.Tokayev bildirib.

## Hulusi Akar başsağlığı verib

### Azərbaycan və Türkiyə müdafiə nazirləri arasında telefon danışığı olub



**Yanvarın 12-si Azərbaycan Respublikası Müdafiə naziri general-polkovnik Zakir Həsənovla Türkiyə Milli Müdafiə naziri cənab Hulusi Akar arasında telefon danışığı olub.**

Müdafiə Nazirliyindən "Şərq"ə verilən məlumata görə, cənab H.Akar Azərbaycan-Ermənistan dövlət sərhədinin Kəlbəcər rayonu istiqamətində yanvarın 11-i Ermənistan silahlı qüvvələrinin törətdiyi təxribat nəticəsində hərbi qulluqçumuzun şəhid olması ilə bağlı başsağlığı verib.

H.Akar Türkiyə Silahlı Qüvvələrinin hər zaman olduğu kimi bu gün də haqq savaşında Azərbaycanın yanında olduğunu bildirib.

# "Laçın dəhlizi bizim nəzarətimizdədir"

### Prezident İlham Əliyev: "Orada istənilən maşını saxlaya bilərik"



"ATƏT-in Minsk qrupu Dağlıq Qarabağ münaqişəsi ilə məşğul olmamalıdır, çünki həll olunub"

**"Ən yüksəkvəzifəli məmurlar bu gün istintaq qarşısında, məhkəmə qarşısında cavab verməli olublar və haqlı cəzalarını alıblar. Bir daha demək istəyirəm ki, heç kim bu məsuliyyətdən boyun qaçıra bilməz, heç kim qanundan üstün deyil, qanun qarşısında hamı bərabərdir, heç kimin əvvəlki xidmətləri nəzərə alınmayacaq".**

Bunu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 12-də yerli televiziya kanallarına müsahibəsində deyib.

***Dövlət başçısı daha sonra bildirib:***

"Son illər ərzində göstərdiyimiz qətiyyət və sözlə əməl arasında olan vəhdət, hesab edirəm ki, hər kəs üçün dərs olmalıdır...

(səh.2)



## Nazarbayev hazırda Nur-Sultan şəhərindədir

### "Elbası məşvərət görüşləri keçirir və Tokayevlə daim əlaqədədir"

**Qazaxıstanın birinci prezidenti Nursultan Nazarbayev hazırda Nur-Sultan şəhərindədir.**

Bunu Qazaxıstanın Azərbaycandakı səfiri Serjan Abdıkarimov səfirlikdə keçirilən mətbuat konfransında deyib. N.Nazarbayevin harada olması ilə bağlı sualı cavablandırarkən səfir birinci prezidentin mətbuat katibi Aydos Ukivbayın sözlərini sitat gətirib.

"Elbası məşvərət görüşləri keçirir və prezident Kasım-Jomart Tokayevlə daim əlaqədədir. Bundan başqa, N.Nazarbayevin bir sıra ölkə rəhbərləri ilə telefon danışıqları olub", - deyə səfir bildirib.

# Qarabağdakı sülhməramlılar "dava-dava" oyunu oynayır

### Azər Qasımov: "Azərbaycan Ordusunun Qarabağda gec-tez anti-terror əməliyyatı aparacağına heç kimin şübhəsi olmasın"

**Qarabağdakı rus "sülhməramlıları" yenə öz ampluasındadır. "Sülhməramlı" kontingentinin hərbçiləri növbəti dəfə müasir vasitələrdən, "BTR-82A" zirehli transportyorlarından istifadə etməklə təhlükəsizlik təlimi keçiriblər.**

Təlimdə Əsgəran, Ağdərə və Xocavənd rayonlarında "təxribat xarakterli hərəkətlər"in qarşısının alınması və şərti hücumun dəf edilməsini məşq ediblər. Rusiya sülhməramlı kontingentinin nümayəndəsi İlya Romançuk bildirib ki, şəxsi heyət mütəmadi olaraq gecə-gündüz döyüşə hazırlıqla bağlı təlimlər keçir.

(səh.3)



## Azərbaycanda 645 nəfər koronavirusa yoluxub

### 9 nəfər vəfat edib, 577 nəfər müalicə olunaraq sağalıb




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 645 yeni yoluxma faktı qeydə alınıb, 577 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 9 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 622 881 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 606 888 nəfər müalicə olunaraq sağalıb, 8 480 nəfər vəfat edib, aktiv xəstə sayı 7 513 nəfərdir.

## Tovuzda icra nümayəndəsi intihar edib

### Onun meyiti yaxınları tərəfindən asılmış vəziyyətdə tapılıb



**Tovuzda intihar hadisəsi baş verib.**

APA-nın yerli bürosunun məlumatına görə, rayonun Göyəbaxan kəndinin icra nümayəndəsi, 1970-ci il təvəllüdlü Barat Məhərrəmov yaşadığı evdə özünü asıb. Onun meyiti yaxınları tərəfindən asılmış vəziyyətdə tapılıb.

*Hadisə yerinə hüquq-mühafizə orqanlarının əməkdaşları cəlb olunub.*



## Təxribatların hədəfi gün kimi aydındır

### Ermənistanın vəziyyəti gərginləşdirməkdə məqsədi var

(səh.3)

## Diplomatlarımıza terror təhdidi var

Əhəd Məmmədli: "Los-Ancelesdəki ermənilər yenidən Azərbaycanın diplomatik nümayəndələrinə qarşı hərəkətə keçiblər"



(səh.3)

# "Laçın dəhlizi bizim nəzarətimizdədir"

## Prezident İlham Əliyev: "Orada istənilən maşını saxlaya bilərik"

**"Ən yüksəkvəzifəli məmurlar bu gün istintaq qarşısında, məhkəmə qarşısında cavab verməli olublar və haqlı cəzalarını alıblar. Bir daha demək istəyirəm ki, heç kim bu məsuliyyətdən boyun qaçıra bilməz, heç kim qanundan üstün deyil, qanun qarşısında hamı bərabərdir, heç kimin əvvəlki xidmətləri nəzərə alınmayacaq".**

Bunu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 12-də yerli televiziya kanallarına müsahibəsində deyib.

**Dövlət başçısı daha sonra bildirib:**

"Son illər ərzində göstərdiyimiz qətiyyət və sözlə əməl arasında olan vəhdət, hesab edirəm ki, hər kəs üçün dərs olmalıdır. Çünki mən dəfələrlə dövlət məmurlarına həm rəsmi qaydada, həm də görüşlər zamanı, onları vəzifəyə təyin edərkən təlimat verirdim ki, korrupsiya ilə, rüşvətxorluqla ciddi mübarizə aparılmalıdır və əgər bu və ya digər məmur bu çirkaba bulaşarsa, cəza çox sərt olacaq. Nəticə də onu göstərir - ən yüksəkvəzifəli məmurlar bu gün istintaq qarşısında, məhkəmə qarşısında cavab verməli olublar və haqlı cəzalarını alıblar. Bir daha demək istəyirəm ki, heç kim bu məsuliyyətdən boyun qaçıra bilməz, heç kim qanundan üstün deyil, qanun qarşısında hamı bərabərdir, heç kimin əvvəlki xidmətləri nəzərə alınmayacaq. Xüsusilə bu əyri yola gedən insanların xidmətləri daha çox "ayı xidməti"nə bənzəyir. Ona görə hesab edirəm ki, bunu hər kəs artıq görüb və bilib. Ona görə bizim addımlarımız çox sərt olacaq, cəzalarımız da çox sərt olacaq.

Amma bu, işin bir tərəfidir. Artıq 18 ildir ki, mən Prezident vəzifəsində işləyirəm və mənim təşəbbüsümlə çoxlu kadr dəyişikliyi edilib. Əfsuslar olsun, bəzi hallarda kadr dəyişikliyi vəziyyətin müsbətə doğru dəyişməsinə aparmır. Çünki yeni kadr təyin edilir, müəyyən müddət ərzində özünü verilmiş təlimatlara uyğun aparır, amma sonra vaxt keçdikcə, necə deyərlər, köhnə, əyri yola gedir. Ona görə burada cəza tədbirləri ilə yanaşı, kadrların düzgün seçilməsi məsələsi öz rolunu oynamalıdır.

### "Bir çox hallarda mediada olan məlumatlar təsdiqlənir"

Bu sahədə son vaxtlar, Azərbaycan ictimaiyyəti görür ki, çox ciddi kadr islahatı aparılıb. Hakimiyyətin demək olar ki, bütün qollarında ciddi kadr islahatları aparılıbdır. Hökumətdə, Milli Məclisdə, Prezident Administrasiyasında, nazirliklərdə, yerli icra orqanlarında artıq böyük dərəcədə ciddi kadr dəyişikliyi baş verib və bu, hesab edirəm ki, korrupsiyaya qarşı mübarizədə önəmli rol oynayacaq. Eyni zamanda, biz cəmiyyətdə də elə ab-hava yaratmalıyıq ki, ictimai nəzarət güclənsin. Siz yaxşı bilirsiniz ki, mən dəfələrlə bu məsələ ilə bağlı öz fikirlərimi bildirmişəm. Mən daim bunu deyirəm, vətəndaşlara müraciət edirəm, biganə qalmayın və nəzarət edin. İctimai nəzarət bir çox məmurları bu cinayət xarakterli işlərdən çəkindirəcək. Ona görə ictimai nəzarətin hansısa institusional formatı da gərək işlənilsin. Sizin, media nümayəndələrinin bu sahədə çox böyük rolunuz var. Deyə bilərəm ki, mən bəzən xoşagəlməz hallar haqqında sizdən öyrənirəm, sizdən bu xəbəri tuturam və dərhal reaksiya verilir. Deyə bilərəm ki, bir çox hallarda mediada olan məlumatlar təsdiqlənir. Elə məlumatlar var ki, onlar qərəzli xarakter daşıyır. Amma məlumatların mütləq əksəriyyəti təsdiqlənir və dərhal ölçü götürülür. Ona görə dövlət məmurları bilməlidirlər, onların işinə təkcə Prezident Administrasiyası yox, həm ictimaiyyət, həm də media nümayəndələri nəzarət edir.

Hesab edirəm ki, vacib amillərdən biri də korrupsiya üçün meydanı daraltmaqdır. Burada da əlbəttə ki, institusional tədbirlər görülməlidir, şəffaflıqla bağlı, hesabatlılıqla bağlı əlavə addımlar atılmalıdır. Bunu sadə sözlə desəm - bütün sahələrdə ASAN modeli tətbiq edilməlidir. Çünki ASAN modeli artıq sınaqdan çıxmış bir modeldir. O da bizim təşəbbüsümüz idi. Bizə qədər bu cür, bu miqyasda və bu əhatədə oxşar bir xidmət sahəsi olmamışdı. Bunu da biz etmişik və bacarmışıq. Ona görə "ASAN xidmət"in əhali tərəfindən bəyənmə əmsalı haradasa 98 faizdir, bəlkə də çox. Mən təəccüb edirəm, nə üçün 100 faiz deyil. Çünki orada tam şəffaf mənzərə mövcuddur. Ona görə bütün sahələrdə - iqtisadi, sosial, məmur-vətəndaş münasibətləri sahəsində bu model tətbiq edilməlidir. Məmur-vətəndaş təmasları da, yəni haradakı korrupsiya imkanları var, minimuma endirilməlidir. Belə olan halda uğurlar daha da təsirli olacaq. Ancaq hesab edirəm ki, bizim siyasi iradəmiz artıq hər kəsə bəllidir. Mən demişəm, əgər hansısa dövlət məmuru özünü dəmir barmaqlıqlar arxasında görmək istəmirsə və əgər öz çirkin əməllərindən əl çəkə bilmirsə, o, vəzifədən könüllü çıxsın ki, özünü bədbəxt etməsin".

### "Ermənilər başa düşməlidirlər ki, azərbaycanlı hərbi qulluqçunun ölümü heç vaxt onlara bağışlanmayacaq"

**Prezidenti İlham Əliyev son günlər yaşanan erməni təxribatlarına da toxunub:**

"Azərbaycan Silahlı Qüvvələri cinayətkarları cəzalandırmaq üçün qəti tədbirlər görüblər və bu gün müdafiə nazirindən aldığım məlumata görə düşmən tərəfin 6-8 hərbi qulluqçusu məhv edilib, çoxları yaralanıb. İşğal faktı nəzərə alınmaqla hərbi quruculuq məsələləri mənim gündəliyimdə həmişə birinci dərəcəli yer tutub. Bu mövzu həm mənim iş qrafikimdə, həm açıq çıxışlarımda, həm də həmkarlarımla əlaqələrimdə həmişə üstünlük təşkil edib. Təbii ki, bu mövzu bütün xalqı birləşdirirdi və biz hamımız Azərbaycanın ərazi bütövlüyünün bərpasını təmin etməyə çalışmışıq. Təsadüfi deyil ki, biz dövlət büdcəsini nəzərdən keçirən və hazırlayan vaxt mən həmişə göstəriş verirdim ki, ən böyük xərclər hərbi quruculuq üçün ayrılmalıdır. Bu, başqa amillərlə yanaşı, özünün haqlı olduğunu sübut edib. İndiki mərhələyə gəldikdə isə, mən bu barədə danışdım və siz tamamilə düzgün olaraq mənim sözlərimi xatırlatdınız ki, biz bir sıra amillər üzrə dayanmamalıyıq. İlk növbədə, ona görə ki, təəssüflər olsun, Ermənistanda həm iqtidarda, həm müxalifətdə, həm də cəmiyyətdə güclü revanşist əhval-ruhiyyə var. Təəssüf ki, biz bunu real həyatda da görürük. Elə dünən Azərbaycan hərbi qulluqçularına qarşı növbəti hərbi təxribat törədilib. Heç bir əsası olmayan bu təcavüz nəticəsində Azərbaycanın hərbi qulluqçusu öldürülüb. Bu, müharibədən sonra baş verən birinci hadisə deyil. Təəssüf ki, bizim bundan əvvəlki cəza xarakterli bütün cavab tədbirlərimiz Ermənistan üçün ibrət dərsi olmayıb. Dünənki hadisə də istisna deyil. Azərbaycan Silahlı Qüvvələri cinayətkarları cəzalandırmaq üçün qəti tədbirlər görüblər və bu gün müdafiə nazirindən aldığım məlumata görə düşmən tərəfin 6-8 hərbi qulluqçusu məhv edilib, çoxları yaralanıb. Bu hadisədən bir qədər sonra erməni tərəfi təkidlə atəşin dayandırılmasını xahiş etməyə başladı. Lakin onlar başa düşməlidirlər ki, azərbaycanlı hərbi qulluqçunun ölümü heç vaxt onlara bağışlanmayacaq. Erməni tərəfin çoxsaylı xahişlərinə, mən deyərdim, yalvarışlarına, bu hadisənin rusiyalı sülhməramlıların məsuliyyət zonasında deyil, Kəlbəcər istiqamətində baş verməsinə, rusiyalı sülhməramlıların da xahişlərinə baxmayaraq, saat 21:30-da mən müdafiə nazirinə komanda verdim ki, atəş dayandırılsın və erməni tərəfin çoxsaylı yaralılarını götürməsinə imkan verilsin. Yəni, istər bu hadisə, istərsə də əvvəl baş vermiş hadisələr bu şəkildə sona çatıb - cinayətlər, təxribat, gizlincə törədilən alçaq təxribatlar, Azərbaycan tərəfin cəza tədbirləri, sonra da atəşin dayandırılması barədə yalvarışlar. Nəticədə Azərbaycan yenə humanizm nümayiş etdirdi, lakin yalnız bizim fikrimizcə cəza əməliyyatının başa çatdırılmalı olması qənaətinə gələndən sonra. Əslində, bizim hərbi quruculuğu davam etdirməyimiz bununla izah olunur. Burada bir neçə aspekt var.



### "Biz həmişə ən yaxşı texnologiyaları almaq istəyirik"

Birincisi, müharibə dövründə biz, əlbəttə, çoxlu sayda döyüş sursatından istifadə etmişik, indi biz onları bərpa etməliyik və bağlanmış yeni kontraktlar bizim üçün bunu təmin edir. Artıq silah və sursat tədarükü gedir. Növbəti məqam - müxtəlif xarakterli müasir silah sistemlərinin alınmasıdır. Biz bu məsələyə həmişə böyük əhəmiyyət vermişik. Ona görə ki, hərbi texnologiya inkişaf edir və biz həmişə ən yaxşı texnologiyaları almaq istəyirik. Bildiyiniz kimi, bizə silah satmaq istəyənlərin sayı baxımından problemimiz yoxdur. Üçüncüsü - Silahlı Qüvvələrin döyüş qabiliyyətinin artırılması. İkinci Qarabağ müharibəsi Böyük Qələbə ilə yanaşı, həm də əməliyyatlar aparılması sahəsində böyük təcrübə deməkdir. Bu, Silahlı Qüvvələrin təlim şəraitində deyil, əməli işdə yoxlanmasıdır və bizim Silahlı Qüvvələr bu yoxlamadan şərəflə çıxdılar. Bununla belə, İkinci Qarabağ müharibəsi bizim bundan sonra nə etməli olduğumuzu, hərbi infrastrukturun hansı elementlərinin bizim tərəfimizdən ya istifadə edilməməsini, ya çox məhdud formatda istifadə edilməsini, ya da onların zəif olmasını göstərdi. Bu da böyük təcrübədir. Lakin indi dediklərimdən artığını məlum səbəblərə görə deyə bilmərəm. Komando qüvvələrinin yaradılması bizim hərbi potensialı təkmilləşdirmə elementlərindən yalnız biridir və lakin çox vacib elementdir. Bu proses başlanıb və artıq dediyim kimi, davam etdiriləcək.

Xüsusi təyinatlı qüvvələr İkinci Qarabağ müharibəsi dövründə özlərini ən yaxşı cəhətdən göstərdilər. Mən bunu dəfələrlə demişəm. Buna görə də həmin qüvvələrin təkmilləşdirilməsi, həmçinin xüsusi təyinatlı yeni qüvvələrin yaradılması vəziyyətin diktə etdiyi zərurətdir. Söhbət revanş cəhdlərindən gedir. Söhbət ondan gedir ki, bir ildən, iki ildən, beş ildən sonra nə olacağını bilmirik. Bu gün Ermənistan ordusu tamamilə bərbad vəziyyətdədir və İkinci Qarabağ müharibəsi dövründə olduğundan daha artıq dərəcədə bizə müqavimət göstərməyə qabil deyil. Biz Ermənistanda həm öz qüvvələri, həm də onların tərəfdaşlarının köməyi ilə bütün hərbi quruculuq cəhdlərini çox diqqətlə izləyirik. Buna görə mən səmimi və açıq demişəm ki, əgər bizim təhlükəsizliyimizə azacıq da olsa təhdid görsək, bu təhdid harada, Ermənistan ərazisinin hansı dərinliyində olsa da, biz onu dərhal, sadəcə, məhv edəcəyik. Bunu hamı, ilk növbədə, Ermənistan rəhbərliyi bilməli və başa düşməlidir.

Beləliklə, bizim gördüyümüz tədbirlər nəticəsində Azərbaycan Silahlı Qüvvələri İkinci Qarabağ müharibəsi dövründə nümayiş etdirildiyindən daha güclü olacaq. Hərçənd, artıq hamının bildiyi kimi, bizim nümayiş etdirdiyimiz həm mütəxəssislərin, həm də bir sıra ölkələrin ictimaiyyətinin gizlətmədiyi heyranlıq doğurub. Bu gözlənilməz və gizlədilməyən heyranlıq, əlbəttə, bizdə, hər kəsdə qürur hissi doğurub. Lakin, eyni zamanda, biz, necə deyərlər, qürrələnməməli, lovğalanmamalı, özlərini böyük döyüşçülər hesab edən, lakin, əslində, sprintdə yeni rekordlar müəyyən etmiş böyük sprinterlər olan erməni tərəfin səhvlərini təkrarlamamalıyıq. Əlbəttə, belə olmayacaq, lakin hər halda indi mənim hərəkətlərim, o cümlədən hərbi quruculuq çərçivəsində hərəkətlərim reallıqlardan kənara çıxmamağa yönəlib. Biz nə lazımdırsa onu etmişik, ləyaqətlə, şərəflə, ədalətlə etmişik və gələcək haqqında, Azərbaycan Silahlı Qüvvələrinin xalqımızı və dövlətimizi bütün mümkün təhlükələrdən qoruya bilməsi barədə düşünməliyik. Fikrimcə, müharibədən sonrakı dövr, - ötən bir il ərzində çox hadisələr baş verib, özü də təkcə Ermənistana münasibətdə deyil, - nümayiş etdirib ki, biz özümüzü layiqincə qorumağı bacarırıq".



## "ATƏT-in Minsk qrupu Dağlıq Qarabağ münaqişəsi ilə məşğul olmamalıdır, çünki həll olunub"

### "Biz onlara Qarabağ məsələsi ilə məşğul olmağa imkan verməyəcəyik"

**Prezident ATƏT-in Minsk qrupunun fəaliyyətinə də münasibət bildirib. Dövlət başçısı deyib ki, ATƏT-in Minsk qrupu Dağlıq Qarabağ münaqişəsi ilə məşğul olmamalıdır, çünki bu münaqişə həll olunub:**

"Hesab edirəm ki, onlar indi yubiley tədbirlərinə hazırlaşırlar. Çünki bildiyiniz kimi, Minsk qrupu 1992-ci ildə yaradılmışdır və bu il 30 illiyidir. Yəqin ki, bu tədbirlərin hazırlanması onları məşğul edir. Amma əgər bu zarafatları kənara qoysaq, hesab edirəm ki, onlar özləri üçün bir gündəlik formalaşdırmalıdırlar. Bu, bizim işimiz deyil. Halbuki, mənim təsəvvürüm var ki, onlar nə ilə məşğul olmalıdırlar və nə ilə məşğul olmamalıdırlar. Nə ilə məşğul olmamalıdırlar, mən deyə bilərəm. Onlar Dağlıq Qarabağ münaqişəsi ilə məşğul olmamalıdırlar, çünki bu münaqişə həll olunub. Biz onların yerinə bu məsələni həll etdik. Onların görünməməsinin səbəbi də hesab edirəm ki, bundan qaynaqlanır. Çünki onlar üçün nə qədər çətin olsa da, bu yeni reallığı qəbul etməlidirlər. Bilməlidirlər ki, onlar bundan sonra Qarabağ məsələsi ilə məşğul olmayacaqlar. Çünki buna biz imkan verməyəcəyik. Biz bu münaqişənin bir tərəfi idik. Əgər bir tərəf deyir ki, bu münaqişə həll olunub, deməli, burada vasitəçiliyə yer qalmır və bizim mövqeyimiz onlara çatdırılıbdır. Nə ilə məşğul olacaqlar, yəqin ki, özləri fikirləşməlidirlər. Bildiyimə görə, indi həmsədrlər arasında da əvvəlki dövrlərdəki kimi birlik yoxdur. Mənim mülahizələrim buna dəlalət edir. Həm bu ölkələr arasındakı münasibətlər son vaxtlar xüsusilə çox gərginləşib, eyni zamanda, keçmiş münaqişə və indiki vəziyyətlə bağlı onların fərqli fikirləri var. Məncə, onlar öz aralarında bir razılığa gələ bilmirlər. Hər halda onların fəaliyyətinin belə aşağı səviyyədə olması bizi qətiyyən narahat etmir, bəlkə də əksinə. Prinsipcə 30 il böyük iş stajıdır, pensiya ərəfəsindədirlər. Ona görə onlara uzun ömür, cansağlığı arzulayıram".

### "Sülhməramlıların fəaliyyətində qıcıq doğuran məqamlar az deyil"

**Prezidenti İlham Əliyev Qarabağdakı sülhməramlıların fəaliyyətindən də danışıb:** "Sülhməramlıların fəaliyyətini qiymətləndirmək üçün hesab edirəm ki, biz daha geniş prizmadan yanaşmalıyıq və əlbəttə ki, qıcıq doğuran məqamlar az deyil. Amma, eyni zamanda, onların müsbət funksiyalarını da qeyd etməmək ədalətsizlik olar. Onlar indi önəmli funksiyanı yerinə yetirirlər. Eyni zamanda, onlar Kəlbəcər, Laçın rayonlarına bizim həm hərbçilərimizin, həm də yüklərin göndərilməsini və daşınmasını müşayiət edirlər və prinsipcə deyə bilərəm ki, mən onların ümumi fəaliyyətinə müsbət yanaşıram. Yəni, keçən il bir çox şeylərə aydınlıq gətirdi, çünki eyni zamanda, bizim Rusiya ilə əlaqələrimizdə yeni bir element yarandı, hansı ki, bu element yox idi. Azərbaycan-Rusiya əlaqələri həmişə çox müsbət olub. Amma keçən il bu əlaqələr daha da dinamik olub və təmaslar daha çox olub, o cümlədən prezidentlər səviyyəsində, müxtəlif səviyyələrdə. Bu, bizim əlaqələrimiz üçün bir yenilik idi və bu yenilik ikitərəfli əlaqələrə problem yarada bilərdi, ya da ki, ikitərəfli əlaqələri gücləndirə bilərdi. Mən deyə bilərəm, artıq keçən ili, bu ili təhlil edərkən sülhməramlı missiyanın Azərbaycan tərəfdaşları ilə münasibətləri ikitərəfli əlaqələrə müsbət təsir göstərmişdir. Ona görə bunu biz bilməliyik, Azərbaycan vətəndaşları da bilməlidirlər.

O ki qaldı, qıcıq doğuran məsələlərə, əlbəttə, bu bizi də qıcıqlandırır və dəfələrlə belə qanunsuz səfərlər baş verdikdə rəsmi qaydada Rusiya tərəfinə irad bildirilir. Həm müdafiə nazirimiz öz həmkarına məktublar göndərib dəfələrlə, həm sülhməramlı missiya rəhbərinə irad bildirilir və Valeri Pekresin son qanunsuz səfəri ilə bağlı da eyni addımlar atılmışdır. Bizə belə bir cavab verildi ki, biz görməmişik, bilməmişik, diqqətdən kənarda olub, o, hansısa adi bir maşında gəlib və sair. Halbuki, əlbəttə, bu, inandırıcı deyil və mən necə var elə də deməliyəm, müsbəti də, mənfini də. Bu, təşkil edilmiş səfər idi, çünki Valeri Pekres istədiyi müşayiətlə gedə bilməyib, çox məhdud sayda gediblər. Onun yanında Fransanın keçmiş xarici işlər naziri, avrokommisar Barnye, bir deputat olmuşdur. Onlar gizli şəkildə oraya getdilər və qayıtdılar. Qayıdandan sonra artıq xəbər çıxdı, çünki yəqin ehtiyatlanırdılar ki, biz Laçın dəhlizində onları dayandıracağıq. Çünki əgər xəbərimiz olsaydı ki, onlar oradadırlar, biz onları geri buraxmayacaqdıq, birmənalı şəkildə. Laçın dəhlizi bizim nəzarətimiz altındadır. Siz Şuşada olmusunuz, görmüsünüz. Biz orada istənilən maşını saxlaya bilərik və heç kim bizə heç nə deyə bilməz. Ona görə belə hallar baş verir, buna yol vermək olmaz qətiyyən və buna son qoyulmalıdır. Məndə olan məlumata görə, Qarabağa gələn Ermənistan nümayəndələri sülhməramlı missiyaya xarici vətəndaşların səfərləri ilə bağlı müraciətlər edirlər. Orada ya icazə verilir, ya da ki, verilmir. Ümumiyyətlə, deyə bilərəm ki, həm giriş-çıxışda, həm Xankəndidə, həm ətraf bölgələrdə baş verən bütün hadisələrdən bizim dəqiq xəbərimiz var. Ona görə bizdən nəyisə gizlətmək, "görməmişik, bilməmişik" demək, qeyri-ciddidir.

Digər qıcıq doğuran məsələ odur ki, biz görürük, Qarabağa, Xankəndiyə və Rusiya sülhməramlı qüvvələrinin nəzarətində olan digər yerlərə gələnlərin sayı gedənlərin sayı ilə böyük fərq təşkil edir. Daha çox insan oradan gedir. Biz bunu izləyirik. Bir şeyi də izləyirik ki, gedən maşınların 91 faizi, - bax, 91 faiz deməklə, o cümlədən mən bildirirəm ki, biz bunu nə dərəcədə dəqiqliklə bilirik, - yoxlanılmır. Oradan çıxan maşınların cəmi 46 faizi yoxlanılmır. Yəni, bu, nəyi göstərir? Onu göstərir ki, Rusiya sülhməramlı qüvvələri çalışırlar, giriş sərbəst olsun, çıxışda isə müəyyən problemlər olsun. Yəni, o maşını dayandırırlar, sorğu-suala tuturlar və sair. Yəni, istəyirlər ki, insanlar oradan getməsinlər. Bu isə təsadüfən ola bilməz. Bu dərəcədə fərq ola bilməz. Biz maşınların da, insanların da sayını bilirik, nə qədər insan girib, nə qədər çıxıb və bu da qəbuledilən məsələ deyil. Bizdə olan məlumata görə, müharibə dövründə oradan çıxmış əhalinin 38 mini İkinci Qarabağ müharibəsindən sonra qayıdıbdır və qayıdanlardan 11 mini oranı həmişəlik tərk edib. Dəqiqləşdirilmiş məlumata görə, indi Rusiya sülhməramlılarının nəzarətində olan ərazidə 27 min insan yaşayır. Bax, bu iki məsələ istisna olmaqla, bütövlükdə, yenə də deyirəm, onların funksiyasını mən müsbət qiymətləndirirəm. Ciddi insidentlər olmamışdır. İnsidentlər Ermənistan-Azərbaycan sərhədində baş verib, yəni, o zonada ciddi insidentlər olmayıb".

### "Sülh müqaviləsi imzalansa da, imzalanmasa da, biz öz hərbi gücümüzü daim artıracağıq"

"Sülh müqaviləsi imzalansa da, imzalanmasa da, biz dediyim kimi, öz hərbi gücümüzü, qüdrətimizi daim artıracağıq və artırmalıyıq. Ermənistan tərəfi isə tərəddüd edir. Yenə də bu, onu göstərir ki, rəsmi dairələr bu məsələ ilə bağlı öz fikrini hələ formalaşdıra bilməyib. Bir tərəfdən, onlar başa düşürlər ki, sülh müqaviləsi olmasa və güclü Azərbaycan mövcud olduğu halda onların müəyyən narahatlığı ola bilər. Digər tərəfdən başa düşürlər ki, sülh müqaviləsi imzalanarsa, orada mütləq hər iki ölkənin bir-birinin ərazi bütövlüyünü tanıması müddəası olmalıdır və onlar buna hazır olmalıdırlar. Ona görə, bilirsiniz, necə deyərlər, iki daş arasında qalıblar. Ancaq seçim etməlidirlər, düzgün seçim etməlidirlər".

*Prezident İlham Əliyev müsahibəsində daha sonra bildirib:*

"Mən demişəm, bizim xoşniyyətli davranışımız şərt deyil ki, əbədi olacaq və şərt deyil ki, bu təkliflər əbədi masa üzərində qalacaq. Əgər bizim ərazi bütövlüyümüzü tanımaq istəmirlərsə, o zaman biz də onların ərazi bütövlüyünü tanımayacağıq. Bizim Ermənistanın ərazi bütövlüyünü tanımamaq üçün bəlkə də yüz dəfə daha çox əsasımız var, nəinki onların bizim ərazi bütövlüyümüzü tanımaması üçün. Çünki hər kəs artıq bunu yaxşı bilir, dünya ictimaiyyəti də bilir ki, 1920-ci ilin noyabr ayında tarixi torpağımız Zəngəzur bizdən ayrılıb Ermənistana birləşdirildi, Göyçə də həmçinin. İrəvan şəhəri 29 may 1918-ci ildə Ermənistana verildi. Yəni, bizim Ermənistanın ərazi bütövlüyünü tanımamaq üçün, necə deyərlər, bir çox amillərimiz var. Amma buna baxmayaraq, gələcək sülh naminə, ölkələr arasındakı əlaqələrin qurulması naminə biz buna hazırıq. Amma mən qarantiya verə bilmərəm ki, bu, altı aydan sonra da eyni olacaq. İstəmirlər, yaxşı, onda olmasın, onda görərik nə olacaq.

# “Kəlbəcər hadisəsi Paşinyanın KTMT-ni bölgəyə gətirmək istəyindən doğur"

## Aqşin Kərimov: “Ceyhun Bayramovun hadisələr barədə xanım Donfridə məlumat verməsi bu fikri gücləndirir”



İsmayıl Qocayev

**Kəlbəcər istiqamətində Ermənistan silahlı qüvvələrinin törətdiyi təxribat və nəticədə bir əsgərimizin şəhid olmasına cavab olaraq Ordumuz sərt tədbirlərə əl atıb. Düşmənə verilən qarşılıq nəticəsində üç erməni hərbçi məhv edilib, 5 nəfər isə yaralanıb. Yanvarın 11-i axşam saatlarında sərhəddə sabitlik yaransa da, erməni tərəfi yenidən atəşkəsi pozub.**

Gecədən səhərədək müxtəlif iriçaplı silahlardan Kəlbəcər və Qazax istiqamətində bölmələrimiz atəşə tutulub. Ordumuz bu təxribatları da cavabsız qoymayıb və düşmənə ikiqat zərbə vurulub. Erməni mediasının yazdığına görə, səhər saatlarında sərhəddə sabitlik yalnız rus sülhməramlılarının müraciətindən sonra mümkün olub. Müdafiə Nazirliyindən bildirilib ki, Ermənistanın üçtərəfli bəyanatlarla üzərinə götürdüyü öhdəliklərini pozaraq iki dövlətin sərhədi boyunca vəziyyəti gərginləşdirməsi məqsədyönlü hərbi təxribat və hərbi avantüradır. Lakin bütün hallarda Azərbaycan Ordusunun bölmələri tərəfindən qarşı tərəfə adekvat və mütənasib cavab verilib. Ordu sıralarında şəxsi heyət və hərbi texnika baxımdan itki olmayıb.

Ombudsman Səbinə Əliyeva da Ermənistanın Kəlbəcər rayonu istiqamətində törətdiyi təxribatla bağlı beynəlxalq təşkilatlara çağırış edib. O, Ermənistanın təxribatçı əməllərini kəskin şəkildə pisləyib. Beynəlxalq və regional təşkilatları, xarici ölkələrin Ombudsman və milli insan hüquqları təsisatlarını Ermənistanın regionda törətdiyi insan hüquqları pozuntularına münasibət bildirməyə və qəti tədbirlər görməyə çağırıb.

Ermənistanın təxribatından sonra Xarici işlər naziri Ceyhun Bayramovla ABŞ Dövlət Katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Karen Donfrid arasında telefon danışığı baş tutub. Dövlət Katibinin köməkçisi Ermənistanın Kəlbəcər istiqamətindəki təxribatı barədə məlumatlandırılıb. Nazir Ceyhun Bayramov bölgədə mövcud olan ən son vəziyyət, o cümlədən üçtərəfli bəyanatların icrası ilə bağlı Azərbaycan tərəfindən atılan addımlar barəsində danışıb. Nazir, Ermənistan tərəfinin iki dövlət sərhədində təxribatı davam etdirdiyini vurğulayıb.

Avropa İttifaqı da Azərbaycan-Ermənistan sərhədindəki gərginlikdən narahatlığını ifadə edib. Aİ-nin Cənubi Qafqaz və Gürcüstan böhranı üzrə Xüsusi Nümayəndəsi Toivo Klaar ”Twitter” bildirib ki, tərəflər üçün gərginliyin azaldılması və mövcud mexanizmlərdən, xüsusən də 2021-ci ilin noyabrında Aİ-nin himayəsi altında yaradılmış Müdafiə Nazirlikləri arasında ”qaynar xət”dən tam istifadə edilməsi vacibdir. Klaar vurğulayıb ki, Aİ tərəflərlə əməkdaşlığa hazırdır. Xüsusi nümayəndə Aİ-nin Ermənistan-Azərbaycan dövlət sərhədinin delimitasiyası və demarkasiyasına dair dəstəyini bir daha bəyan edib.

**Sərhəddə baş verən insidentlərlə bağlı “Şərq”ə danışan siyasi şərhçi Aqşin Kərimov deyib ki, Ermənistan Soçi bəyanatından və Brüssel danışıqlarından sonra növbəti dəfə cığallıq edərək atəşkəsi pozdu, geostrateji mövqedə yerləşən Kəlbəcərdəki Azərbaycan mövqeləri atəşə tutuldu.** Analitik vurğulayıb ki, Ermənistanın 2022-ci ildə dövlət sərhədində ilk təxribatı yanvarın 8-nə təsadüf etdi: ”İki məqamı göz önünə gətirsək, mövqelərimizə atılan mərmilərin izlərinin bizi siyasi motivlərə aparıb çıxardığını görəcəyik. Yanvarın 8-də Kəlbəcərdə Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Yuxarı Şorca yaşayış məntəqəsi istiqamətindən Kəlbəcər rayonu ərazisində yerləşən Azərbaycan mövqelərini atəşə tutdu. Bu, Qazaxıstan hadisələri fonunda diqqət çəkdi. Ona görə ki, Ermənistan hələ müharibədən öncə dəfələrlə Rusiyanın iradəsi altında olan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını münaqişəyə cəlb etmək istəyirdi, amma bütün bu cəhdlər boşa çıxdı. Ermənistanın Baş naziri Nikol Paşinyan yanvarın 10-da KTMT-nin Qazaxıstan hadisələrinə həsr olunmuş növbədənkənar iclasında həmin hərbi təşkilatın Qazaxıstandakı fəaliyyətinin çərçivəsini genişləndərək Qarabağ zonasına gəlişini arzulayan bəyanat səsləndirdi. Paşinyan tərəfindən arqumentə əsaslanmayan, həyasızlıq saçan tezislər bizi təəccübləndirmir, bu cür hallar ilk deyil. Qısası, Paşinyan çalışdı ki, Azərbaycanı KTMT-nin hədəf taxtasına gətirsin, ancaq bu dəfə də arzusu qursağında qaldı. Qeyd etdiyimiz xronoloji ardıcıllıq və Paşinyanın utanmadan təkrarladığı tezis Kəlbəcərdəki hadisənin məqsədli şəkildə baş verdiyini və özündə siyasi maraqlar ehtiva etdiyinin sübutudur. Yanvarın 8-də Ermənistan Azərbaycan mövqelərini AQS və digər iriçaplı silahlardan atəşə tutub. Bu isə onu göstərir ki, Azərbaycan tərəfinə daha çox itki vermək üçün iriçaplı silahların tətiyi çəkilib”.

**Ekspert xatırladıb ki, 2021-ci ilin dekabrın sonunda Azərbaycan Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Kərim Vəliyev Kəlbəcərə yollanmışdı. Görünür, ermənilər bu səfəri onlar üçün yeni ərazi itkisi kimi dəyərləndirib:** ”Amma bunu deməyə və hər hansı addım atmağa cəsarət tapmadıqları üçün Qazaxıstan hadisələrini fürsət biliblər. Ermənistanın başqa dövlətin iradəsinə arxayın olmadan təxribatın miqyasını genişləndirməsi mümkün deyil. Ən azından ona görə ki, bunun üçün Ermənistanda resurs yox dərəcəsindədir. KTMT-nin Qazaxıstana qüvvə yeritməsindən cuşa gələn Nikol Paşinyan Rusiyadan yardım diləyən addıma getdi, yanvarın 11-də Kəlbəcər istiqamətində atışmalar daha da şiddətləndi. İnsident nəticəsində Azərbaycan Ordusunun bir hərbçisi şəhid oldu, Ermənistana isə artıqlaması ilə cavab verildi. Ermənistan tərəfinin rəsmi açıqlamasına əsasən, 3 erməni hərbçi məhv edilib, 5-i yaralanıb. Ermənistanın itkiləri gizlətmək təcrübəsi olduğuna görə, bu itkilərin çox olduğunu söyləmək olar. Azərbaycanın hərbi mənbələri bildirir ki, Ermənistanın 8 hərbçisi məhv edilib və iki postu darmadağın edilib. Eyforiyaya qapılan Paşinyan indi zəhmət çəkib öz həyasızlığını ört-basdır edən tezislər üzərində fikirləşir”.

**A.Kərimova görə, məsələnin siyasi rənginə dair Azərbaycanın təmaslarında diqqət çəkən məqam yanvarın 11-dəki hadisədən dərhal sonra danışığı ABŞ tərəfi ilə aparmasıdır:** ”Azərbaycan-ABŞ siyasi trafikindəki ”zəng diplomatiyası” bunun göstəricisidir ki, Bakı Paşinyanın KTMT-ni yeni coğrafiyaya gətirmək cəhdləri barədə Vaşinqtonu xəbərdar edib. Ceyhun Bayramovun Kəlbəcər istiqamətindəki hadisələr barədə xanım Donfridə məlumat verməsi bu fikri gücləndirir. Deməli, Azərbaycan tərəfində şübhələr çoxdur ki, Rusiya bu hadisələri öz xeyrinə çevirməyə çalışır və KTMT gücünü yeni zonada göstərmək istəyir. Ermənistanın bundan sonra da təxribatlara yol verəcəyi istisna oluna bilməz, amma bunun İrəvan üçün nəticələri daha ağır olacaq”.



# Təxribatların hədəfi gün kimi aydındır

## Ermənistanın vəziyyəti gərginləşdirməkdə məqsədi var

**Xəbər verdiyimiz kimi, Ermənistan tərəfi 11 yanvar 2022-ci il tarixində Kəlbəcər istiqamətində növbəti dəfə təxribat törədib. Bu barədə Azərbaycan Müdafiə Nazirliyi məlumat yayıb.**

Məlumata əsasən, Azərbaycan Ordusunun bölmələri qeyd olunan istiqamətdə heç bir aviasiya vasitəsi və artilleriyadan istifadə etmədən qarşı tərəfin susdurulması məqsədilə adekvat cavab tədbirləri həyata keçirib. Ermənistan silahlı qüvvələrinin törətdiyi təxribat nəticəsində hərbi qulluqçumuz, əsgər Nəzərov Ayaz Azər oğlu şəhid olub. Azərbaycan Xarici İşlər Nazirliyindən bildirilib ki, Ermənistan rəhbərliyi bölgədə vəziyyətin gərginləşdirilməsinə görə bilavasitə məsuliyyət daşıyır və rəsmi Bakı belə hərbi təxribatların davam etdirməsini qətiyyətlə pisləyir.

Qeyd edək ki, Ermənistan tərəfindən iki ölkənin dövlət sərhədi boyunca qəsdən vəziyyətin yenidən gərginləşdirilməsi cəhdlərinin təkrarlana biləcəyini istisna etməyərək Azərbaycan Ordusunun bölmələri gücləndirilmiş rejimdə ölkəmizin suveren ərazilərini və sərhədlərinin təhlükəsizliyini qoruyur.

Bu barədə Azərbaycan Müdafiə Nazirliyinin yaydığı məlumatda bildirilir.

**Təxribatların niyyətini şərh edən beynəlxalq məsələlər üzrə ekspert, siyasi şərhçi Əziz Əlibəyli ”Şərq”ə bildirib ki, bu məsələ iki vacib nüansa söykənir:**

”Biri yanvarın 14-də Türkiyə və Ermənistanın İrəvan-İstanbul-İrəvan reysinin açılması ilə bağlı tərəflər arasında Moskvada baş tutacaq görüşdür. Ermənistanda hansısa qüvvələr təxribat törədərək bunu əngəlləməyə çalışır. Digər məsələ KTMT-nin Qazaxıstan əməliyyatıdır. Bilirik ki, hazırda KTMT-nin dönəm başqanı Ermənistandır. Tokayev meydana çıxan qazax xalqının nümayəndələrini terrorçu adlandırdı. Onları zərərsizləşdirmək üçün KTMT-yə müraciət etdi. Bununla da KTMT-yə üzv ölkə rəhbərlərinin sammitində Ermənistanın Baş naziri Nikol Paşinyan Tokayevin terrorçu ibarəsindən həvəsləndi. O, İkinci Qarabağ müharibəsində iştirak edən Azərbaycan hərbçilərini terrorçu adlandırıb eyni görüntünü formalaşdırmağa çalışdı.

Burda əsas məqsəd odur ki, KTMT bütünlükdə proseslərə cəlb edilsin. Beləcə Azərbaycan Ordusuna qarşı Azərbaycan-Ermənistan sərhədində KTMT qüvvələri yerləşdirilsin. Rəsmi İrəvan əməliyyatlar zamanı onlardan istifadəyə nail olsun. Ümumi mahiyyət bundan ibarətdir”.

*Siyasi şərhçi bu təxribatdan sonra Türkiyənin Azərbaycana dəstək nümayişinə toxunub və burdakı əsas məsələyə diqqət çəkib:* ”Türkiyənin Milli müdafiə naziri Hulusi Akar Türkiyənin Azərbaycanın yanında olduğunu bəyan etdi. O bununla Ermənistana xatırlatdı ki, törətdiyi belə təxribatlarla hazırda Türkiyə ilə qurula biləcək münasibətlərə də zərbə vurur. Həmçinin H.Akar Azərbaycan əleyhinə hərbi birləşmələrin, xarici dövlətlərin KTMT adı altında toplaşmasına imkan verməmək üçün bunu qeyd etdi”.

*Ə.Əlibəyli bir gün öncə Azərbaycan-Ermənistan arasında imzalanan 11 yanvar sazişinin ildönümü olduğunu diqqətə çatdırıb:* ”Baş vermiş bu təxribat nəticəsində Azərbaycanın rəsmi İrəvana verdiyi adekvat cavab tədbiri Ermənistana xatırlatma nöqteyi-nəzərindən yaxşı bir dərs oldu”.

**Günəş Mərd**

# Diplomatlarımıza terror təhdidi var

## Əhəd Məmmədli: “Los-Ancelesdəki ermənilər yenidən Azərbaycanın diplomatik nümayəndələrinə qarşı hərəkətə keçiblər”



**ABŞ-da ermənilər Azərbaycana qarşı təxribat törədiblər. Bu barədə Azərbaycanın Los-Ancelesdəki baş konsulu Nəsimi Ağayev bildirib. Baş konsul vurğulayıb ki, ötən gecə erməni radikalları terrorçu Qurgen Yanikyanın fotosunu konsulluğun binası qarşısından asıblar.**

Nəsimi Ağayev Los-Ancelesdə erməni terrorizminin tarixini nəzərə alaraq, şəhərin Federal Təhqiqat Bürosunu və polisini məsələni araşdırmağa çağırıb. Məlumat üçün deyək ki, erməni terrorçu, türk diplomatların qatili Qurgen Yanikyan 27 yanvar 1973-cü ildə Santa Barbara şəhərində yerləşən ”Baltimor” otelində Türkiyənin Los-Ancelesdəki konsulu Məhməd Bayduru və vitse-konsul Bahadur Demiri qətlə yetirib. O, həmin il məhkəmənin qərarı ilə ömürlük həbs cəzasına məhkum edilib. 1984-cü ildə səhhətindəki problemlərlə əlaqədar olaraq həbsdən azad olunub və bir ay sonra vəfat edib. Son günlər Azərbaycan-Ermənistan sərhədində müşahidə olunan gərginlik fonunda xarici ölkələrdəki erməni lobbisinin də fəallaşması, terrorçuları gündəmə gətirməsi diqqət çəkici məqamlardır.

**Politoloq Əhəd Məmmədli ”Şərq”ə açıqlamasında bildirib ki, dünyada daha çox təşkilatlanmış və güclü təsir imkanlarına, maliyyəyə sahib erməni diasporası Rusiya, Fransa və ABŞ-dadır.** Siyasi şərhçinin sözlərinə görə, Latın Amerikası ölkələrində də erməni lobbisi fəaliyyət göstərir. Lakin ermənilər diaspora şəbəkələrini əsasən güclü və nüfuzlu dövlətlərdə qurmağa üstünlük verirlər: ”Amerika daxilində ən geniş resurslara və təsir rıçaqlarına malik erməni diasporası Los-Anceles şəhərindədir. Xatırladım ki, Tovuz döyüşləri zamanı Los-Ancelesdəki ermənilər diplomatlarımıza hücum etmişdilər. Yenidən Azərbaycanın diplomatik nümayəndələrinə qarşı hərəkətə keçiblər. Məsələ ondadır ki, Azərbaycan-Ermənistan savaşı bitməyib. Müharibə zaman-zaman sərhəddə olmaqla bərabər eyni zamanda diplomatik müstəvidə, mediada, sosial şəbəkələrdə və digər sferalarda da davam edir. Hətta ermənilər çirkin mübarizə metodlarını küçələrə daşıyır, xarici ölkələrdə diplomatik missiya icra edən həmvətənlərimizin təhlükəsizliyinə təhdid yaradırlar. Terrorçuluq vazkeçilməz erməni xislətidir. Hazırda terroru dövlət siyasətinə çevirən ermənilər tarixin bütün mərhələlərində bundan istifadə ediblər. Ona görə də rəsmi Bakının cavabı gecikməməlidir. Çalışmalıyıq ki, konsulluq əməkdaşlarını təhdid edən ermənilər hüquqi məsuliyyətə cəlb edilsinlər və cəzalarını alsınlar. Erməniləri dünyanın hər yerində, xüsusən ABŞ-da ifşa etmək vacibdir”.

**İsmayıl Qocayev**

# Qazaxıstan böhrandan hələ tam çıxmayıb

## Tokayev iqtisadi qərarlarla narazı kütləni sakitləşdirməyə çalışır

Sənan İsmayıl



**Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev yanvar ayının 11-də yeni hökumətin tərkibini təsdiq edib. Tokayev bununla bağlı müvafiq sərəncam imzalayıb.**

Sərəncama əsasən, Alixan Smailov Qazaxıstanın Baş naziri təyin edilib.

Roman Sklyar Baş nazirin birinci müavini, Eralı Tuqjanov, Muxtar Tleuberdi və Baxıt Sultanov Baş nazirin müavinləri vəzifəsini tutublar.

Bolat Akçulakov isə energetika naziri vəzifəsində Maqzum Mirzaqaliyevi əvəzləyib.

Bununla belə, Baş nazirin müavini - Xarici işlər naziri Muxtar Tleuberdi, Müdafiə naziri Murat Bektanov və Daxili işlər naziri Erlan Turqumbayev öz vəzifələrində qalıb.

Eyni zamanda Qazaxıstanda nazirlər, bölgə rəhbərləri və millət vəkillərinin əməkhaqqı artımı 5 il müddətinə dondurulub.

Bu barədə məlumatı Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev ölkə parlamentində çıxışı zamanı bildirib.

Tokayev sözügedən şəxslərin maaşlarının kifayət qədər yüksək olduğunu qeyd edib. Prezident Milli Banka təngənin sabitliyini təmin etməyi və ölkədən əsassız çıxarılan vəsaitlərin yoxlanışını həyata keçirməyi tapşırıb. Ölkədə inflyasiya səviyyəsinə nəzarət etmək üçün yeni kompleks tədbirlər hazırlanacaq. Bununla yanaşı, Tokayev respublikanın xarici investorlar qarşısında bütün öhdəliklərini yerinə yetirəcəyini vəd edib. Prezident həmçinin hökumətə ictimai sosial fondun yaradılması ilə bağlı göstəriş verib. O qeyd edib ki, Qazaxıstanda iki ay ərzində əhalinin gəlirlərinin artırılması üzrə proqram qəbul ediləcək.

**Tokayevin son günlərdə aldığı qərarlar barədə ”Şərq”ə danışan politoloq Faiq Ələkbərli hökumətin kadr sistemini bütövlükdə dəyişdirməyin mümkün olmadığını bildirib.**

”Qazaxıstanda hökumət dəyişikliyindən sonra yeni baş nazir təyin edilməsi, bir neçə nazirin yerində saxlanılması tədricən dəyişiklik edilməsinə görədir. Bütövlükdə kadr bazasını dəyişdirmək Qazaxıstan üçün gələcəkdə problemə yol aça bilər. Bir neçə nazir, xüsusilə də baş nazir dəyişildi. Yerdə qalanlar da özünü doğrultduğuna görə yox, daha çox növbəti bir mərhələyə keçid üçün lazımdı. Ümumiyyətlə, Tokayevin atdığı bəzi addımlar sadəcə ölkədaxili sabitliyin qorunmasına da yönəlmir, eyni zamanda digər dövlətlərin də müəyyən mənada Qazaxıstana olan təzyiqinin qarşısının alınması baxımından da önəmlidir.

Tokayev Nazarbayevə nisbətdə çox da güclü siyasi-taktiki gedişlər etmək iqtidarında deyil. Ona görə də çalışır ki, mümkün olduğu qədər Nazarbayevdən qalan siyasəti balanslaşdırılmış şəkildə davam etdirsin. Bu mövzuda çox uğurlu olmasa da nisbətən bacara bilir”.

“Ancaq bəzi məsələləri həddindən artıq Rusiyanın diktəsi altında gerçəkləşdirmək istəyi təhlükəlidir”

**Tokayevin sosial-iqtisadi dəyişiklərlə bağlı veriyi qərarı dəyərləndirən politoloq qeyd edib ki, Qazaxıstan prezidenti bu yolla narazı qalan kütlələri sakitləşdirmək istəyir:**

”Tokayev parlamentdəki çıxışında müəyyən məsələlərə toxunmuşdu. Orada əsasən xalqla nələri isə bölüşdürmək, paylaşmaq məsələləri var idi. Əvvəlki illərə nisbətən Qazaxıstanda iqtisadi cəhətdən, əhalini təmin etmək cəhətdən son illərdə bir az geriləmələr var. Bu, xüsusilə, Rusiyanın iqtisadi cəhətdən geriləməsi ilə bağlıdır. Tokayev son illərdə narazı qalan kütlələri yenidən sakitləşdirmək, xalqın rəğbətini qazanmaq üçün bu addımları atır. Ümid edirik ki, bu və digər məsələlərlə bağlı addımları hesablayıb atırlar. Çünki bu ancaq xalqa quru vədlər verməklə bağlı deyil. Ola bilər ki, Qazaxıstanda müəyyən kütlənin arxasında Rusiya və ya ABŞ dayanır. Ancaq atılan bu addımlar Qazaxıstanda növbəti problemə yol açmadı. Əgər gələcəkdə açarsa, şübhəsiz ki, burada daha çox maraqlı olan, öz mövqeyini postsovet ölkələrində gücləndirmək istəyən Rusiya bundan da istifadə etməyə çalışacaqdır.

Bu mənada iqtisadi ekspertlərlə, xüsusilə, türk dövlətlərinin ekspertləri ilə də müəyyən müzakirələrin aparılması Qazaxıstanın xeyrinə olardı. Qazaxıstan hökumətinin Rusiyanın təhdidindən müəyyən dərəcədə çəkinməsi başadüşüləndir. Ancaq bəzi məsələləri həddindən artıq Rusiyanın diktəsi altında gerçəkləşdirmək istəyi təhlükəlidir. Qazaxıstanın yenidən dirçəlməsi üçün təkcə Rusiyayönümlü deyil, Türk Dövlətləri Təşkilatının üzvləri, xüsusən Türkiyə ilə də müəyyən danışıqların aparılması Qazaxıstanın xeyrinə olar”.

# MEDİA 1 yaşını tamamladı




**2021-ci il yanvarın 12-də Prezident İlham Əliyevin fərmanı ilə Medianın İnkişafı Agentliyi yaradıldı.**

MEDİA ötən bir il müddətində müxtəlif işlər gördü. Yeni müsabiqələrin təşkili, silsilə seminarlar keçirməsi, qlobal şirkətlərlə ikitərəfli əlaqələrin qurulması Azərbaycan mediasında yeni inkişaf mərhələsinin başlanğıcı idi.

Ən mühüm layihələrdən biri isə "Media haqqında" Qanun layihəsinin qəbul olunmasıdır.

**Qulu Məhərrəmli:** "Müəyyən qayğılarımız var"



**Ceyhun Musaoğlu:** "1 il ərzində atılan addımların hər birinin təmiz niyyətdən irəli gəldiyini və təsirini gördük"



**Agentliyin 1 illik fəaliyyətini ”Şərq”ə dəyərləndirən BDU-nun Jurnalistika fakültəsinin professoru Qulu Məhərrəmli MEDİA-nın xidmətlərini müsbət qiymətləndirib:** ”Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu (KİVDF) kimi qeyri-müəyyən, qüsurlu, fəaliyyət sahəsini dəqiq bilməyən qurumdan fərqli olaraq MEDİA-nın yaradılmasını yüksək qiymətləndirmişik. İndi də müsbət hesab edirəm. Lakin müəyyən qayğılarımız var. "Media haqqında" qanunun qəbulolunma texnologiyası və irəli sürülən tezislərlə bağlı narahatlığımızı dilə gətirmişik. Arzu edirik ki, Azərbaycanda azad media üstün səviyyəyə qalxsın, jurnalistlər özlərini sərbəst hiss etsinlər və mətbuatımız cəmiyyətə doğru-dürüst, vicdanla xidmət göstərsinlər. MEDİA mətbuat azadlığını, jurnalistikanın prinsiplərini qorusun, jurnalistlərin normal fəaliyyəti üçün şərait yaradılsın. Belə olduğu təqdirdə MEDİA-nın gələcək inkişafını yüksək qiymətləndirəcəyik. Mərkəzləşmə, medianı qəliblərə salmaq istəyi olsa, Media Agentliyi prosesdə iştirak etsə, biz buna yalnız təəssüflənəcəyik”.

**Jurnalist Ekspert Mərkəzinin (JEM) sədri, ”Rupor.az” saytının baş redaktoru Ceyhun Musaoğlu isə ”Şərq”ə açıqlamasında Medianın İnkişafı Agentliyinin özü-özlüyündə Azərbaycan mətbuatı üçün sözün bütün mənalarında xüsusi hadisə olduğunu vurğulayıb:**

”Artıq köhnə hesab edilən Kütləvi İnformasiya Vasitələri (KİV) haqqında qanuna son 18 ildə əlavə və dəyişikliklər edilməmişdi. Sanki Azərbaycan mətbuatı sözügedən qanunun timsalında ”donmuş” vəziyyətə gətirilmişdi. Əlbəttə, jurnalistlər, qəzetlər, saytlar şəxsi investisiyası hesabına geri qalmırdılar. Peşə dəyərlərini qoruyaraq, etik çərçivədən çıxmayaraq müqəddəs fəaliyyətlərini davam etdirirdilər. 4-cü hakimiyyət fəlsəfəsindən çıxış edərək nəzarət mexanizmini yerinə yetirməyə çalışırdılar. Hər bir fəaliyyət növünü tənzimləyən qanunlar toplusu var. Bizim isə 18 il idi ki, qanunlarımız dəyişilmirdi. Bu son iyirmi il ərzində media, xüsusilə informasiya sahəsində çox sürətli və möcüzəvi dəyişikliklər baş verdi. Yeni əsri ”informasiya erası” adlandırırıq. Belə bir vəziyyətdə Prezidentin sərəncamı ilə MEDİA-nın yaradılması çox rəğbətlə qarşılandı. Bir il əvvəl, bu gün sərəncamı ciddi şəkildə təqdir etdik. Təbii, Prezidentin sərəncamları müzakirə olunmur, yerinə yetirilir. Belə addımın atılmasına görə sevindik, çünki söhbət bizə yol açacaq hadisədən gedirdi. Gözləntilərimiz böyük idi, demokratik mühit istəyirdik. Jurnalistlərin ağır, çətin və müqəddəs işlə məşğul olduğunu dərk edib, istəkləri həyata keçirə biləcək qanun layihəsi hazırlanmasına ehtiyac vardı. Sanki üşüyürük, soyuqdur, anidən günəş parlayır. Hamımız üzümüzü günəşə tutacağıq. Nə yaxşı ki, bu günəş doğdu. İndi isə düşünürük ki, günəş hamımızı qızdıra biləcək? 1 il ərzində onun şüalarının bizi qızdırdığının şahidi olduq və cismani, ruhi davranışlarımızda hiss edildi”.

*C.Musaoğlu bildirib ki, bütün dünya jurnalistlərini bir-birinə azadlıq, demokratiya, sözə hörmət və dövlətə, vətənə jurnalistikanın tələbləri çərçivəsində xidmət göstərmək bağlayır:* ”Jurnalistin işi baş verən hadisələri olduğu kimi təqdim etməkdən ibarətdir. Gərək şərait yaradılsın və jurnalistlərə bu reallıq çərçivəsindən kənara çıxmasına imkan verilsin. Tədbirlər, müsabiqələr, saytlara və qəzetlərə müsabiqə formasında dəstək, xüsusilə treninqlər - ümumilikdə 1 il ərzində atılan addımların hər birinin təmiz niyyətdən irəli gəldiyini və təsirini gördük. Ötən il saytlara, qəzetlərə dəstək verildi. Azərbaycan mətbuatına ciddi təkan oldu. Bütövlükdə mübarək hadisə baş verdi. Bu inkişafın sistemli, davamlı olmasını, geri dönüşün edilməməsini istəyirik.

Biz şərqliyik, münasibət xalqıyıq. Bir-birimizlə açıq, isti münasibətdə oluruqsa, o vaxt inkişaf edirik. Jurnalistika tam səmimi münasibətin üzərində qurulan, bu çərçivədə dövran etməyi bacaran sektordur. Vətən müharibəsində səmimiyyətimizə bürünüb qalib gəldik. Oğlumuzu, qardaşımızı səmimiyyətlə qurban verdik və şəhidləri qəbul etdik. MEDİA-nın kollektivi səmimiyyət düşüncəsi ilə seçilir. Onlar hamısı bizim içimizdən çıxan insanlar olduğuna görə haranın ”ağrıdığını” bilirlər. 1 il müddətdə vacibiyyət təsdiqini tapdı”.

**Aygün Tahir**

İsmayıl Qocayev



**Dünən Brüsseldə NATO-Rusiya Şurasının iclası keçirilib. Hərbi alyansın Qərargahında baş tutan iclasda Avropanın təhlükəsizliyi, Ukrayna və onun ətrafındakı vəziyyət, eyni zamanda, hərbi fəaliyyətlər, şəffaflıq və risklərin aradan qaldırılması müzakirə olunub.**

# “NATO-Rusiya görüşü müsbət nəticə verməyib”

## Samir Hümbətov: “Ukrayna məsələsində nə Rusiya, nə də ABŞ güzəştə getmək niyyətindədir”

Moskvanın nümayəndə heyətinə Rusiya xarici işlər nazirinin müavini Aleksandr Qruşko və müdafiə nazirinin müavini Aleksandr Fomin rəhbərlik ediblər. 2 ildən sonra ilk dəfə keçirilən görüşdə ABŞ Dövlət katibinin müavini Vendi Şerman da iştirak edib. Qeyd edək ki, dialoq platforması olan NATO-Rusiya Şurası 20 il əvvəl yaradılıb. Lakin Rusiya 2014-cü ildə Ukraynanın Krım yarımadasını ilhaq etdikdən sonra platformanın iclasları dayandırılıb. Sonuncu dəfə 2019-cu ilin iyulunda məhdud çərçivədə toplantı olub. Görüşdən sonra təşkilatın baş katibi Yens Stoltenberq mətbuat brifinqi keçirib. Stoltenberq deyib ki, hərbi alyans Rusiyanın Ukraynanı təşkilata üzv qəbul etməkdən imtina çağırışına mənfi cavab verib: ”Asan müzakirələr olmadı. Biz Ukrayna və Avropanın təhlükəsizliyi ilə bağlı ciddi və birbaşa fikir mübadiləsi apardıq”. O bildirib ki, NATO müttəfiqləri və Rusiya arasında fikir ayrılıqları var, ancaq bir stol arxasında oturub müzakirə aparmaq yaxşıdır, müsbət siqnaldır: ”Biz NATO-nun açıq qapı siyasətini dəstəkləyirik, hər ölkənin öz seçim hüququ var. Gələcəkdə daha detallı görüşlərimiz olacaq. Tərəflər arasında mülki və hərbi kommunikasiya kanalının olmasını, Brüssel və Moskvada büroların fəaliyyətinin bərpasını vacib hesab edirik. Eyni zamanda, Ukrayna ətrafındakı vəziyyət barədə narahatlığımızı ifadə etdik. Rusiya bütün qonşu ölkələrin ərazi bütövlüyünü və suverenliyini tanıyıb hörmət etməlidir”. Stoltenberq qeyd edib ki, Rusiya qoşunları Moldova, Gürcüstan və Ukraynanın razılığı olmadan bu ölkələrin ərazilərindədir: ”Bu qüvvələr həmin ölkələr tərəfindən qəbul edilmir. Biz bu gün görüşdə Rusiyanı qoşunlarını bu ölkələrin ərazisindən geri çəkməyə çağırdıq. Rusiya hərbi qüvvələrini bu ölkələrdən geri çəkməli və həmin ölkələrin ərazi bütövlüyünü tanımalıdır”.



**Aylardır gözlənilən mühüm görüşlə bağlı ”Şərq”ə danışan ”Atlas” Araşdırmalar Mərkəzinin eksperti Samir Hümbətov deyib ki, iclasdan öncə bu cür təmasların nəticə verməyəcəyini vurğulayıb.** Müsahibimizin sözlərinə görə, tərəflərin tutduğu mövqedən və verdikləri açıqlamalardan görüşün nəticəsiz başa çatacağı bəlli idi:

”Rusiya tərəfi NATO-nun Şərqə doğru irəliləməsinə qəti surətdə razı deyil və buna mane olmaq üçün müxtəlif addımlar atır. Baltikyanı ölkələrin hərbi alyansdan çıxarılması məsələsini zaman-zaman gündəmə gətirir. Hərbi blokun rəhbəri Stoltenberq isə birmənalı bəyan edir ki, alyansın genişlənmə siyasəti prioritetdir və qətiyyətlə davam edəcək. Tərəflərin ciddi konsensusa gələcəyi gözlənilmir. Bundan sonra üç-dörd görüş baş tutsa belə zaman itkisindən başqa ortada heç nə olmayacaq. Ukrayna məsələsində nə Rusiya, nə də ABŞ güzəştə getmək niyyətindədir. Ukrayna Qara dənizə çıxışın qapısı olduğu üçün Qərb və Rusiyanın ”qırmızı xəttinə” çevrilib. Kimsə geri addım atmadığı təqdirdə ortaq məxrəcə gəlmək mümkün olmayacaq. Moskva Ukraynanın NATO-ya üzv olmaması barədə qarantiya tələb edir. Kiyev bu tələbə çox sərt reaksiya verib. Ukrayna indiki məqamda quruma üzv ola bilməz, çünki münaqişə vəziyyətində olan ölkənin təşkilata daxil olması NATO-nun birbaşa Rusiya ilə savaşa girməsi deməkdir. O baxımdan Ukraynanın hərbi alyansa birbaşa üzv qəbul olunması real görünmür. Lakin müxtəlif formatda Kiyevi hərbi bloka bağlamağı düşünürlər. Son günlər ”NATO+Ukrayna” modeli barədə söhbətlər gedir”.



# Yaşayış binalarının yeni tikinti qaydaları hazırlanır

## Ramil Osmanlı: “Paytaxtın görünüşünü qorumaq üçün müəyyən addımlar atılmalıydı. Yeni normaların tətbiqi həm də buna hesablanıb”

Məlahət Rzayeva

**Yaşayış binaları ilə bağlı daha bir qaydanın tətbiqi nəzərdə tutulur. Trend-in məlumatına görə, ”Yaşayış binaları. Layihələndirmə normaları”nda əksini tapan növbəti yenilik yaşayış binalarında gözətçi otaqları ilə bağlıdır. Qeyd edilir ki, kriminal hadisələr riskinin və onların nəticələrinin azaldılmasına yönəldilmiş tədbirlərə istismar mərhələsində əlavələr edilməlidir.**

Yeni normalara əsasən, binanın gözətçi otağı (layihə tapşırığında nəzərdə tutulduğu halda) elə yerləşdirilməlidir ki, oradan vestibülün giriş qapısına, vestibül olmadıqda, liftə və pilləkənə aparan keçidə vizual baxış təmin olunsun. Gözətçi otağının yanında sanitar qovşağı nəzərdə tutulmalıdır. Mülki müdafiə qurğularının yerləşdirilməsi sxemi üzrə müəyyənləşdirilmiş bir sıra binalarda layihə tapşırığına uyğun olaraq ikili funksional təyinatı olan sahələr layihələndirilməlidir. Qeyd edək ki, yaşayış binalarının layihələndirilməsiylə bağlı bundan əvvəl də bir sıra normalar açıqlanmışdı. Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Kollegiyasının təsdiqlədiyi ”Yaşayış binaları. Layihələndirmə normaları”nda yaşayış binalarının damında radiorele dirəklərinin və qüllələrinin necə quraşdırılması, yaşayış binalarında balkonların, lociyaların layihələndirilməsi, mənzillərin mümkün sahəsi, sayı ilə bağlı da yeni tələblər qoyulur. Tikinti şirkəti sahibləri üçün ürəkaçan görünməyən qaydalar, mənzilə tələbatı olan ailələrin də arzusunun reallaşmasına mane ola bilər. Çünki yeni qaydaların tikinti və mənzil bazarında qiymət artımına səbəb olacağı ehtimalı artır.

**”Əmlak” Ekspert Mərkəzinin direktoru Ramil Osmanlı ”Şərq”ə açıqlamasında yeni qaydaların bir tərəfdən, vətəndaşların xeyrinə olduğunu dedi:**

- Tutalım, yaşayış binasının, sakinlərin təhlükəsizliyinin təmin edilməsi məqsədilə müəyyən qaydalar çərçivəsində gözətçi otağının olması tələbi müsbət haldır. Belə deyək, köhnə binalarla bunu etmək mümkün deyil. Dövlət balansında olan binalar var, hansı ki, ötən əsrdə tikilib, istismara verilib. Ötən əsrdə kooperativ binalar da tikilirdi. Onlarda da mühafizəçi, gözətçi otağı nəzərdə tutulmurdu. Lakin müasir dövrün tələbləri fərqlidir. Məsələn, indi hətta ötən əsrdə tikilmiş çoxmənzilli yaşayış binalarına giriş kodlaşdırılır və bu kodu yalnız bina sakinləri, konkret blokda mənzilə sahib şəxslər bilir. Yaxud, eyvanlar, lociyalarla bağlı tələblər əslində normaldır və yenə də sakinlərin, həm də ətraf ərazidə yaşayanların rahatlığı nəzərə alınır. Təəssüf doğuran yalnız budur ki, bu qaydalar çox gec tətbiq edilməyə başlandı. Paytaxtda xaotik tikintilər ötən əsrin sonlarından başladı, son illər də daxil olmaqla davam etdi. Paytaxtda yaşayış binaları, ofis binaları, şadlıq sarayları, marketlər, ümumiyyətlə, bütün tikililər o qədər sıx inşa edilib ki, ayaq basmağa yer qalmayıb. Bunun ən böyük problemi də yollardakı tıxaclar, şəhərdə hərəkətin faktiki iflas duruma düşməsidir. Amma gec də olsa, tikinti qaydalarına müsbət dəyişiklik edilirsə, bu, alqışlanmalıdır. Ümid edək ki, heç olmasa, bundan sonra tikintilər norma daxilində inşa edilər. Son illərədək fikir verirdinizsə, şəhər daralırdı, genişlənmirdi. İndi isə artıq hiss olunur ki, şəhər kənarlara doğru genişlənir. Tikintilər şəhərkənarı qəsəbələrə istiqamətlənib. Sumqayıt, Xırdalan, Masazır, Sulutəpə, Müşfiqabad.... Bunun əsas səbəbi də cənab Prezidentin Eldar Əzizovu Bakı şəhər icra hakimiyyətinin başçısı təyin edərkən qarşıya qoyduğu vəzifələrdir. Yadınızdadırsa, cənab Prezident tikinti əmsalları, ərazi sıxlığı ilə bağlı göstərişlər verdi. Bildirdi ki, tikinti sahəsinin neçə faizi tikili ilə örtülə bilər. İnşaat sahəsinin maksimum 60 faizində tikinti aparıla bilər. Amma əvvəlcə necəydi, sahibkar 20 sot torpaq sahəsi alırdı, sərəncamla tikintiyə icazə alıb bütün sahəni tikinti altına alırdı. Yeni qaydalarla isə torpaq sahəsi mütləq mülkiyyətdə olmalıdır. 1 hektar sahədə aparılacaq tikinti 2,8 əmsalından yuxarı ola bilməz. 1 hektar ərazi üçün tikinti sahəsi 28 min kvadrat metrdir. Əlbəttə, bu qaydalar bir tərəfdən tikinti xərclərini artırır. Xüsusən mərkəzi hissələrdə tikilən binada 1 kv.metrin qiyməti 400-500 manatdan yuxarı çıxır. Bu da mənzil bazarında qiymətlərin yüksəlməsi deməkdir. Amma istənilən halda qazanan paytaxtımız olacaq. Paytaxtın görünüşünü qorumaq üçün müəyyən addımlar atılmalıydı. Yeni normaların tətbiqi həm də buna hesablanıb.

# Sərhəddə təxribatlar səngiməyəcək

## Məqsəd odur ki, Ermənistan Azərbaycan qarşıdurmasını yeni müstəviyə keçirsinlər

**Son günlər Ermənistanın təxribatının sayı artıb. Məlum olduğu kimi, Ermənistan silahlı qüvvələrinin törətdiyi təxribat nəticəsində hərbi qulluqçumuz müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Nəzərov Ayaz Azər oğlu şəhid olub.**



Növbəti təxribatla ermənilər yanvarın 11-i gecə saat 23:20-dən 12-si səhər saat 05:10-dək Basarkeçər rayonunun Yuxarı Şorca yaşayış məntəqəsində yerləşən mövqelərindən Kəlbəcər rayonunun Zəylik, Yellicə, həmçinin Şəmşəddin rayonunun Çinarlı, Muğancıq kəndləri istiqamətində yerləşən mövqelərindən Tovuz rayonunun Muncuqlu, Ağbulaq, Qoşa, Koxanəbi və Əsrik Cırdaxan yaşayış məntəqələri istiqamətində yerləşən Azərbaycan Ordusunun mövqelərini atıcı silahlar və iriçaplı pulemyotlardan fasilələrlə atəşə tutub. Ordumuzun sıralarında şəxsi heyət və hərbi texnika baxımdan itki olmayıb. Müdafiə Nazirliyi dövlət sərhədi boyunca qəsdən vəziyyətin yenidən gərginləşdirilməsi cəhdlərinin təkrarlana biləcəyini istisna etmədiyini bildirib. Eyni zamanda Azərbaycan Ordusunun bölmələri gücləndirilmiş rejimdə ölkəmizin suveren ərazilərini və sərhədlərinin təhlükəsizliyini qoruduğunu qeyd edib. Bu hadisələrdən sonra Azərbaycan və Türkiyə XİN başçıları Ceyhun Bayramovla Mövlud Çavuşoğlu arasında telefon danışığı reallaşıb. Nazirlər Qazaxıstandakı mövcud vəziyyəti dəyərləndirib, fikir mübadiləsi aparıblar. Bunun ardından Rusiya Prezidenti Vladimir Putin və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında telefon danışığı baş tutub. Bu barədə Kremlin mətbuat xidmətindən bildirilib ki, Ermənistanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT) sədrliyi nəzərə alınaraq, Qazaxıstanda KTMT-nin sülhməramlı əməliyyatının gedişi ilə bağlı fikir mübadiləsi aparılıb: ”Respublikada vəziyyətin yaxşılaşmasına töhfə verən səmərəli koordinasiya edilmiş sülhməramlı kontingentin fəaliyyəti qeyd edilib. Həmçinin Qarabağ ətrafında mövcud durum, Rusiya, Azərbaycan və Ermənistan liderlərinin 2020-ci il 10 noyabr, ötən ilin 11 yanvar və 26 noyabr tarixli bəyanatlarında əldə olunmuş razılaşmaların icrası ilə bağlı bəzi məsələlər müzakirə edilib”.

Qeyd edək ki, Qazaxıstan hadisələrinə Ermənistan münasibət bildirib. Ədavətli ölkənin Təhlükəsizlik Şurasının sədri Armen Qriqoryan bildirib ki, Ermənistan bu kimi analoji təhlükələrlə üzləşdiyi təqdirdə KTMT-nin yardımına ümid bəsləyir.

Yaşanan bu proseslərdən sonra Ermənistan sərhədlərin delimitasiya və demarkasiyasını, həmçinin Zəngəzur dəhlizinin açılmasını ertələyə bilərmi?

**Sualımızı cavablandıran siyasi elmlər doktoru, professor Cümşüd Nuriyev ”Şərq”ə açıqlamasında bildirib ki, Azərbaycan və Ermənistan sərhədində baş verən hadisələr düşmən ölkənin özündən qaynaqlanmır:**

”Prosesləri Ermənistanın arxasında olan qüvvələr həyata keçirir. Burada həm qərbin, həm Rusiyanın, həm də İranın maraqları var. Məqsəd ondan ibarətdir ki, Azərbaycan və Ermənistan qarşıdurmasını yeni müstəviyə keçirsinlər. Apardığım analizin nəticəsi bunu göstərir. Rusiyanın əsas maraqları sırasında iki ölkənin gərginliyindən yararlanıb, rus sülhməramlılarını sərhəd boyu yerləşdirmək dayanır. Yəni Ermənistanın müraciəti əsasında bunu reallaşdırmaq gündəmdə ola bilər. Amma bu, mümkünsüzdür. Əvvəla, KTMT-nin Qazaxıstana müdaxiləsini dünya ictimaiyyəti çox pis qarşılayıb. Həmin təşkilatın bilavasitə bu tip məsələlərə müdaxiləsi beynəlxalq hüquqa ziddir. Azərbaycan Ermənistan tərəfə keçmir, sərhədi pozmur. Ərazimizdə hələ Ermənistan silahlıları mövcuddur. Azərbaycan öz sərhədlərinin delimitasiya və demarkasiyasını istəyir. Təbii olaraq Ermənistanda Paşinyanı istəməyən qüvvələr çalışacaq ki, Azərbaycan-Ermənistan sərhədində belə xaotik durumlar olsun. Əslində Paşinyan üçün bu, arzuolunan deyil. Görünən odur ki, Ermənistan ordusunda hələ də Rusiyaya xidmət edən erməni hərbçiləri var. Tez-tez təxribat törətməyə cəhd edilir ki, Azərbaycan Ordusu sərhədi keçsin. Amma Ermənistan bu arzusuna çatmayacaq. Nə KTMT, nə də başqa xətt ilə Azərbaycana hər hansı bir təzyiq göstərə biləcək. Azərbaycanın idarəetməsi çox peşəkar bir siyasətçinin əlindədir. Ermənistan və onu dəstəkləyən dövlətlərin ölkəmizə qarşı törədə biləcəkləri təxribatı ölkə başçısı çox yaxşı bilir”.

*Professor əlavə edib ki, Ermənistan prosesləri nə qədər gecikdirməyə çalışsa, bir o qədər onların ziyanınadır:* ”Onsuz da indiki iqlim şəraiti sərhədlərin delimitasiya və demarkasiyasını reallaşdırmağa çox ciddi problemlər yaradacaq. Ona görə də Azərbaycan yəqin ki, havaların isinməsinə qədər gözləməyə üstünlük verəcək. Bu da təbii haldır. Sülh müqaviləsinin gecikdirilməsi də Ermənistanın xeyrinə deyil. Zəngəzur dəhlizinin açılması ilə bağlı məsələ də var. Həmin dəhlizin açılması da bilavasitə Azərbaycandan çox Ermənistana, yaxud da digər ölkələrə lazımdır. Çünki Ermənistan tam blokadadadır. Müəyyən qüvvələr blokadanın açılmasına razı deyil. Bu cür təxribatlar yəqin ki, yenə də olacaq. Son bir neçə ayda görünən odur ki, Ermənistan bu təxribatları davam etdirəcək. Amma hər dəfə də düşmən tərəf kifayət qədər ”payını” alacaq. Azərbaycan Ermənistanın törətdiyi təxribatlara ”dəmir yumruq” səviyyəsində cavab verib, verir və verəcək”.

**Sücayət Mehti**

# Ankara-İrəvan yaxınlaşmasında Qərbin izləri aydın görünür

## Ermənistan "şahmat taxtasında" piyadadır, onun Türkiyəyə qətiyyətli etiraz sərgiləmək iradəsi yoxdur



**"Yanvarın 14-də Türkiyə-Ermənistan münasibətlərinin normallaşmasına dair xüsusi nümayəndələri Serdar Kılıç və Ruben Rubinyanın iştirakı ilə ilk görüş keçiriləcək.**

**Görüşün məkanı dünya siyasi qütbünün bir tərəfində yer alan əsas gücün - Rusiyanın paytaxtı Moskvada keçiriləcək.**

Türkiyə-Ermənistan münasibətlərində buzların əriməsi iki qütbün - Qərbin də, Rusiyanın da marağındadır, amma böyüyən ziddiyyətlər və kəskin xarakter alan rəqabət fonunda hər ikisi ehtiyat edir ki, prosesdə təşəbbüskarlığı ələ alacaq".

**Bu barədə "Şərq"ə analitik Aqşin Kərimov bildirib. O qeyd edib ki, Cənubi Qafqazda yaranan yeni reallıq beynəlxalq münasibətlər sisteminə də təsir edir, Ankara-İrəvan əlaqələrinin axar məcraya yön alması üçün cəhdlərin arxasında yeni təşəbbüslər qazanmaq imkanları dayanır:**

"ABŞ və Avropa regionda münaqişə yaradacaq problemlərin mütləq sülh modelinə əsaslanan həllinə nail olmağa çalışsa da, Rusiya amili bu strategiyanın önünə keçir və Moskva alternativlər ortaya qoyur.

Ancaq Moskvanın reseptləri uzunmüddətli sülh modelinə dair fikirlərlə zəngin deyil, Kreml daha çox hökmran olmaq istəyir, ancaq onun da qarşısına elə Türkiyə faktoru çıxır.

***"Moskvanın reseptləri uzunmüddətli sülh modelinə dair fikirlərlə zəngin deyil, Kreml daha çox hökmran olmaq istəyir, ancaq onun da qarşısına elə Türkiyə faktoru çıxır"***

Yəni Moskva İrəvanı öz çevrəsində sıxışdırır, bu məsələdə Ankaraya hər hansı diktəedici təsirlər göstərməsi mümkün deyil.

Ankara-İrəvan arasında münasibətlərin istiləşməsinin müəllifi qismində Qərbin izlərini daha aydın görmək olur, hələ 2021-ci ilin oktyabrında Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla ABŞ Prezidenti Co Bayden arasında Romada görüş keçirilərkən Cənubi Qafqazdakı diplomatik səylər müzakirə edilmişdi.

O dövrdə mətbuatda yazılırdı ki, münasibətlərin normallaşmasının təşəbbüskarı Co Baydendir, hərçənd ki, biz bu təşəbbüskarlıqda Rusiya ilə razılaşmanın da elementlərini görə bilərik.

Yəqin bu razılaşmanın nəticəsidir ki, Serdar Kılıç-Ruben Rubinyan danışıqlarının ilk raundu Moskvada keçirilir, bununla da Rusiya prosesdə həlledici amil olduğu mesajını verir.

Türkiyə tərəfi dəfələrlə bəyan edib ki, Ankara-İrəvan münasibətlərində yeni səhifə açılması məsələsi Azərbaycanla koordinasiya ediləcək.

Bu mənada Serdar Kılıç Ruben Rubinyana Azərbaycan tərəfinin də şərtlərini açıqlayacaq və bildirəcək ki, münasibətlərin normal hala gəlməsi üçün Ermənistan siyasi avantüra ilə yanaşı, hərbi təxribatlarına da son verməlidir.

Bu məsələdə biz Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində Türkiyənin maraqlarının ifadə edilməsi cəhdlərini duyuruq.

Hərbi kontekstdən yanaşmağımıza səbəb odur ki, Serdar Kılıç diplomat olsa da, Moskvaya yollanmamışdan öncə (yanvarın 10-da) Türkiyənin Milli müdafiə naziri Hulusi Akarın qəbulunda olub.

Bu görüşdən yola çıxaraq düşünmək mümkündür ki, Türkiyə Cənubi Qafqazda, eləcə də Azərbaycan ərazilərində öz hərbi iştirak səviyyəsini yüksəltməyə çalışır və bu məsələ Moskva danışıqlarında iştirak edəcək Rusiya nümayəndələri qarşısında da qaldırılacaq. Türkiyənin hərbi aktivlik zonasını ağrısız şəkildə genişləndirməsi Ermənistanın provokativ addımlarının, bu addımlara rəvac verən ideyaların yoxluğundan keçir.

Ermənistan "şahmat taxtasında" yalnız piyadadır, o, özünü regional təcriddən çıxarmaq istəyir, onun Türkiyə tərəfinə qətiyyətli etiraz sərgiləmək kimi bir potensialı və iradəsi yoxdur. Rusiya danışıqların bu mərhələsində də Ermənistanı öz iradəsinə tabe etdirəcək, indi danışıqların nəticə əsaslı hala gəlməsi Rusiya-Qərb maraqlarının toqquşan müstəvidən çıxıb kəsişən ölçüyə gəlməsindən və uzlaşan maraqların Azərbaycan-Türkiyə maraqlarına uyğunluğundan asılıdır".

**Ekspert qeyd edib ki, Türkiyənin Cənubi Qafqazda hərbi iştirakını gücləndirməsində hədəflər var:**

"Birincisi, bu regiondan özünə gələ biləcək təhdidlərin dəf edilməsidir. İkincisi, Azərbaycanın təhlükəsizliyinin zəmanətinə tam gücü ilə çevrilməsidir. Üçüncüsü, regionda həyata keçirilən layihələr Türkiyə iqtisadiyyatı üçün mühüm alətlərdəndir. Bu mənada həmin enerji layihələrinə təhlükələrin olmamasına çalışmaq Türkiyə siyasətində yer tutur".

**Günəş Mərd**



**Azərbaycan nefti bahalaşıb. "Azeri LT CIF" markalı xam neftin qiyməti 2,21 ABŞ dolları və ya 2,61 faiz artıb. Nəticədə dünya bazarında Azərbaycan neftinin bir barelinin qiyməti 86,88 ABŞ dolları təşkil edib.**

Qeyd edək ki, "Azeri Light" markalı neftin bir barelinin qiyməti 2020-ci ilin aprel ayında minimal səviyyədə - 15,81 dollar olub, 2008-ci ilin iyulunda isə maksimum qiymətə - 149,66 dollara satılıb. Gün keçdikcə qiymət artımı hər sahədə özünü göstərir. Bahalaşma Azərbaycan neftindən də yan keçmədi. Ümumiyyətlə, bu hal bütün dünyada müşahidə olunur.

# Neftin bahalaşmasına bir neçə amil təsir edib

## Rusiya və Ukrayna arasında hərbi münaqişə yaranarsa, enerji daşıyıcılarının qiymətində daha böyük sıçrayışlar olacaq

*Neftin bahalaşması nə vaxta qədər davam edə bilər?*

**Mövzu ilə bağlı "Şərq"ə danışan Neft Araşdırmalar Fondunun rəhbəri, iqtisadçı İlham Şaban bildirib ki, Azərbaycan nefti "Brent" markalı neftlə əlaqəlidir:** "Hazırda dünya bazarlarında neftin qiyməti ən yüksək həddədir. "Brent" markalı neft bu gün ilk dəfə olaraq 84 dolları keçdi. Azərbaycan nefti "Brent"ə bağlı olduğundan və dünya birjalarında qiyməti müəyyənləşdirilmədiyindən dünya bazarında neftin qiymətindən söhbət açarkən məhz həmin markalı neftə üzümüzü tuturuq".

Ekspert neftin qiymətini artıran amillərə diqqət çəkib: "Bahalaşma iki məsələdən qaynaqlanır. Birincisi, qazın qiymətləri Avropa bazarında xeyli yüksəkdir. Qaz fyuçerslərinin qiyməti 1000 kubmetr üçün 1000 dollardan baha qiymətə ticarət edilir. Hesab edirəm ki, bu həftə ərzində hava şəraitinin dəyişməsi ilə əlaqədar olaraq 1200-1300 dollara qədər bahalaşma mümkündür. Qazın qiymətinin yüksək olması məhz neftin qiymətinin qızışdırıcı faktoru olub. İkinci bir fakt ondan qaynaqlanır ki, Qərblə Rusiya arasında siyasi münasibətlər kifayət qədər gərgindir. Bu, risk dərəcəsi kimi özünü neftin qiymətlərində də tapır.

*İqtisadçı Azərbaycan neftinə təsir edən amillərdən birinin ABŞ-la bağlı olduğunu vurğulayıb:* "Həftəlik neft ehtiyyatlarının bundan öncə 6 həftə ard-arda azalması kimi faktorlar neftlə ticarət edən dairələrin daim ehtiyatlı davranmasına səbəb olub. Qiymət də ona görə bu qədər yüksəkdir".

İ.Şaban bahalaşmanın hansı həddə qədər yüksələcəyini proqnozlaşdırmağın çətin olduğunu vurğulayıb: "Əvvəlcədən heç nə demək olmur. Sadəcə, ortada siyasi və hərbi risklər var. Məsələn, Rusiya və Ukrayna arasında hərbi münaqişə yaranarsa, enerji daşıyıcılarının qiymətində dəyişiklik labüddür".

**Cəmilə ƏZİM**



# Kreml Qazaxıstandan çəkilməyə tələsmir

## "Rusiya özü Qazaxıstanda müəyyən qarşıdurma yaradaraq, yerli ruslara qarşı təxribat törədərək "sülhməramlıların" ölkədə daha çox qalmasına zəmin hazırlaya bilər"

**Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının sülhməramlı missiyasının fəaliyyətini çox yüksək qiymətləndirib. Tokayev növbəti dəfə bildirib ki, yanvarın 13-dən KTMT kontingentinin Qazaxıstandan çıxarılması prosesinə başlanacaq.**

Prezident qeyd edib ki, artıq müvafiq ölkələrin rəhbərləri ilə danışıqlar aparılıb. O, qoşunların çıxarılmasının 10 günə başa çatacağını söyləyib. KTMT qüvvələrinin Qazaxıstandan çıxarılması məsələsində ziddiyyətli açıqlamalar verilir. Tokayev konkret tarix versə də, Rusiyanın Müdafiə naziri Sergey Şoyqu bildirir ki, kontingentin missiyası Qazaxıstanda vəziyyət sabitləşəndən sonra başa çatacaq. Şoyqunun sözlərinə görə, hazırda sülhməramlılar Qazaxıstan ərazisində mühüm hərbi, dövlət və sosial əhəmiyyətli obyektlərin mühafizəsi üzrə tapşırıqları yerinə yetirir. Sülhməramlı kontingentinin komandanı, general-polkovnik Andrey Serdyukov da deyib ki, qüvvələrin Qazaxıstandan çıxarılmasına verilən tapşırıqların tam icrasından sonra başlanacaq. Kremlin sözçüsü Dmitri Peskov da məsələyə toxunub. Vurğulayıb ki, sülhməramlıların Qazaxıstandan çıxarılma vaxtı təşkilata üzv ölkələrlə koordinasiya edilir. Peskov kontingentin Qazaxıstandan çıxarılması müddəti barədə təkcə Rusiyanın qərar vermədiyini, quruma üzv ölkələrlə məsləhətləşmələr aparıldığını qeyd edib.

**KTMT-nin Qazaxıstandan çıxarılması ətrafında cərəyan edən söz-söhbətlə bağlı "Şərq"ə danışan Azərbaycan Milli İstiqlal Partiyasının sədri Arzuxan Əlizadə təəssüflə qeyd edib ki, Orta Asiyanın ən böyük türk respublikasında baş verənlərlə bağlı məlumat qıtlığı var. Partiya rəhbərinin sözlərinə görə, internetə qoyulan qadağa Qazaxıstanla bağlı ətraflı və daha dəqiq informasiya əldə etməyimizə mane olur:** "Məqsədyönlü şəkildə məlumatların yayılmasının qarşısı alınır. Rusiya hərbçilərinin "sülhməramlı" adı ilə Qazaxıstana soxulması ölkə ictimaiyyətinin ciddi narazılığına və etirazına səbəb olub. "Sülhməramlılar" ölkədə özbaşınalıq edir, özlərini Qazaxıstanın "yiyəsi" kimi aparırlar. Tokayev isə daxili narazılığı azaltmaq üçün KTMT-nin ölkədən çıxışı ilə bağlı tarix verir, prosesin yaxın günlərdə başlayacağını deyir. Tokayevin iddiasına görə, yanvarın 13-dən "sülhməramlılar" Qazaxıstanı tərk edəcək və proses 10 gün sürəcək. Ancaq prezidentin məlum açıqlamasından dərhal sonra Rusiya rəsmilərinin təkzib xarakterli bəyanatları yayıldı. Rus generaliteti və siyasiləri birmənalı vurğuladılar ki, KTMT öz funksiyasını başa vurduqdan sonra ölkəni tərk edəcək. Rus ekspertlər də bildirirlər ki, "sülhməramlı"ların ölkədən tezliklə çıxması iğtişaşların yenidən başlamasına səbəb ola bilər".

**A.Əlizadə vurğulayıb ki, Kreml dolayı yolla diqqətə çatdırır ki, bu məsələ Tokayevin istəyindən və tələbindən asılı deyil:** "Ruslar daxil olduqları ərazidən heç də könüllü çıxmırlar. Rus mediası yazır ki, "sülhməramlıların" Qazaxıstana göndərilməsi üçün ciddi maliyyə sərf olunub. Xüsusi vurğulayırlar ki, qoşunların dislokasiyasından bir həftə sonra tam tərkibdə çıxarılması ağlabatan deyil. Prosesin ancaq mərhələli şəkildə həyata keçirilməsi mümkündür. Əslində, hamımız bilirik ki, rus qoşunlarının Qazaxıstandan çıxma prosesi çox ağrılı keçəcək. Hətta ehtimallar var ki, Rusiya özü Qazaxıstanda müəyyən qarşıdurma yaradaraq, yerli ruslara qarşı təxribat törədərək "sülhməramlıların" ölkədə daha çox qalmasına zəmin hazırlaya bilər".

**İsmayıl Qocayev**

# Qarabağdakı sülhməramlılar "dava-dava" oyunu oynayır

## Azər Qasımov: "Azərbaycan Ordusunun Qarabağda gec-tez anti-terror əməliyyatı aparacağına heç kimin şübhəsi olmasın"



**Qarabağdakı rus "sülhməramlıları" yenə öz ampluasındadır. "Sülhməramlı" kontingentinin hərbçiləri növbəti dəfə müasir vasitələrdən, "BTR-82A" zirehli transportyorlarından istifadə etməklə təhlükəsizlik təlimi keçiriblər.**

Təlimdə Əsgəran, Ağdərə və Xocavənd rayonlarında "təxribat xarakterli hərəkətlər"in qarşısının alınması və şərti hücumun dəf edilməsini məşq ediblər. Rusiya sülhməramlı kontingentinin nümayəndəsi İlya Romançuk bildirib ki, şəxsi heyət mütəmadi olaraq gecə-gündüz döyüşə hazırlıqla bağlı təlimlər keçir. Narazılıq doğuran məqam odur ki, sülhməramlılar öz təlimlərinə erməni yeniyetmələri də cəlb edərək onlara "özünümüdafiə dərsləri" verirlər. Ruslar "təxribat xarakterli hərəkətlərin" qarşısını almaq üçün mütəmadi təlimlər təşkil etsələr də, erməni quldurları tərəfindən dəfələrlə törədilmiş heç bir təxribatın önünü almayıblar. Hətta çox vaxt təxribata şərait yaradıb, erməni silahlılarının özbaşına hərəkətlərinə göz yumublar. Xatırladaq ki, Rusiyanın Qarabağdakı sülhməramlı kontingentinin rəhbərliyində dördüncü dəfə dəyişiklik edilib. General-mayor Andrey Volkov yeni komandan təyin edilib. Volkov Əfqanıstanda, Qroznı və Suriyada xidmət keçib. 2021-ci ilin mayına kimi Qarabağdakı rus sülhməramlılarının sabiq komandanı, general-leytenant Rüstəm Muradovun müavini olub. Rus sülhməramlı kontingentin əvvəlki rəhbəri general-leytenant Gennadi Anaşkin idi.

**Qarabağdakı rus sülhməramlılarının təhlükəli oyunlarını "Şərq"ə dəyərləndirən siyasi şərhçi Azər Qasımov deyib ki, rusların Qarabağda sülh yaratmaq, təxribatların qarşısını almaq üçün gəldiklərini düşünmək sadəlövhlükdür. Ekspertə görə, "sülhməramlıların" bir ildən artıq fəaliyyəti onların Qarabağa hansı məqsədlə gəldiklərinin əyani sübutudur:** "Rusiya "sülhməramlıları" bu müddət ərzində öz missiyalarından savayı hər işlə məşğul olublar. Lakin mütəmadi təlimlər təşkil etmək və separatçıları da prosesə cəlb etmək son həddir və açıq-aşkar Azərbaycana meydan oxumaqdır. Məqsəd üç-beş erməni quldurunu silahlandırmaq və lazım olan məqamda Azərbaycana qarşı istifadə etməkdir. Əslində, Rusiya tərəfi də çox yaxşı bilir ki, erməni silahlısı Azərbaycan hərbçisini görəndə döyüşmək yox, qaçmaq haqqında fikirləşir. Görünür, Kreml bu addımlar ilə rəsmi Bakıya mesaj vermək istəyir. Mesaj isə odur ki, guya, erməni gənclərinin özləri "müstəqillik" üçün döyüşməyə hazırdırlar, bundan vaz keçmək istəmirlər. Həmçinin, şüuraltı mesaj ötürürlər ki, erməni gəncləri Azərbaycanla bir yerdə yaşamaq istəmirlər. Ancaq Moskvanın Qarabağla bağlı bütün oyunlarının fiaskoya uğrayacağına şübhə etmirəm. 44 günlük müharibədə qələbə qazanan, az qala bütün dünya gücləri ilə mübarizə apararaq torpaqlarını işğaldan azad edən Azərbaycan başı əzilmiş üç-beş erməninin "dava-dava" oyununa çox dözməyəcək. Bu gedişlə Azərbaycan Ordusunun Qarabağda gec-tez anti-terror əməliyyatı aparacağına heç kimin şübhəsi olmasın".

**İsmayıl Qocayev**

# Mehdiyev peşmandır

## Sumqayıtda bayraqla avtomobil təmizləyən şəxs üzr istədi




**Bayraqla avtomobil təmizləyən və sosial şəbəkələrdə videosu yayılan şəxsin kimliyi müəyyən edilib.**

DİN Mətbuat Xidmətinin inspektoru Zeyni Hüseynov Trend-ə bildirib ki, polis əməkdaşları tərəfindən həyata keçirilmiş əməliyyat-texniki tədbirlərlə həmin şəxsin Sumqayıt şəhər sakini 72 yaşlı Soltan Mehdiyev olması müəyyən edilib.

Sumqayıt Şəhər Polis İdarəsinə dəvət olunan S.Mehdiyev izahatında taksi fəaliyyəti ilə məşğul olduğunu bildirib. O qeyd edib ki, avtomobilində təmizlik üçün bir neçə parça olub, lakin həmin vaxt səhv salaraq həmin parçalardan deyil, bayraqdan istifadə edib.

*S.Mehdiyev etdiyi bu hərəkəti qınayan hər bir kəsdən üzr istəyib və peşman olduğunu bildirib.*

# Saakaşvili növbəti məhkəmə prosesində iştirak edəcəyini açıqlayıb



**Gürcüstanın sabiq prezidenti Mixeil Saakaşvili 13 yanvar tarixində keçiriləcək məhkəmə prosesində iştirak edəcəyini açıqlayıb.**

24News.ge xəbər verir ki, bu barədə Saakaşvili həbsxanadan ünvanladığı məktubunda qeyd edib. Onun sözlərinə görə, məhkəmə prosesi zamanı Dövlət Müfəttişliyi ətrafında baş verən hadisələrlə bağlı çıxış edəcək;

"Mənim işimlə bağlı obyektiv qərar qəbul edildikdən sonra Dövlət Müfəttişliyi vəzifəsi qanunla ləğv edildi, ardından dünən şəhər "məhkəməsi" də mənim işimlə bağlı Dövlət Müfəttişliyinin qərarını ləğv etdi. "Tülkü öz quyruğunu şahid elan etdi" deyirlər, elə bu "hakimiyyət" və onun məhkəməsi də məhz belədir.

Sabah, günün birinci yarısında "məhkəmə"yə gedəcəyəm və sözümü deyəcəyəm. Saat 13:00-da görüşəcəyik",-deyə Saakaşvilinin məktubunda qeyd edib.

# Xarici dilə marağın artması təbii prosesdir

## Gələcəkdə kurslara axının güclənəcəyini ehtimal etmək də olar



**Hazırkı dövrdə əksər insan ikinci dil öyrənməyə can atır. Xarici dil öyrənmək artıq zərurət halına gəlib. İnsanlar öz ana dili ilə yanaşı, müxtəlif dilləri də mənimsəmək istəyirlər. Ölkəmizdə də yeni dil öyrənmək istəyən şəxslərin sayı kifayət qədər çoxdur. Sözsüz ki, bu, sevindirici haldır.**

Ölkədə məktəblərdə və universitetlərdə xarici dil dərsləri mütəmadi olaraq tədris olunur. Ancaq Azərbaycanda yeni dil öyrənən şəxslərin böyük bir əksəriyyəti bu dili xüsusi kurslarda öyrəndiyini deyir. Bu barədə jurnalist Aləmdə Nəsib də maraqlı status paylaşıb. O qeyd edir:

"Kimdən soruşuram, deyir kursa gedirəm. Niyə xarici dildə danışmağı orta və ali məktəbdə keçirilən dil dərslərində öyrənə bilmirik?!"

Bu zaman belə bir sual ortaya çıxır: Məktəblərdə və ali təhsil ocaqlarında verilən xarici dil dərsləri qənaətbəxş deyilmi?

**Sualımızı cavablandıran təhsil eksperti Nadir İsrafilov "Şərq"ə məktəblərdə xarici dil fənlərinə ayrılan saatlara diqqət çəkib:** "Ümumi təhsil müəssisələrinin I-XI siniflərinin 2021-2022-ci dərs ili üçün tədris planına əsasən xarici dilin tədrisinə I-IV siniflərdə hər sinif üzrə 1 saat olmaqla həftədə 4 saat, V sinifdə 2 saat, VI-IX siniflər üzrə 3 saat, X-XI siniflər üzrə isə 4 dərs saatı vaxt ayrılır. VI sinifdən başlayaraq IX sinfə qədər hər sinif üzrə 1 saat, X-XI siniflər üzrə isə ikinci xarici dilin tədrisinə əlavə olunan 2 saatı da nəzərə alsaq, bu dərs yükü xarici dilin öyrənilməsi üçün kifayət edir".

Ekspertin fikrincə, xarici dil öyrənən şəxslərin dil kurslarından istifadə etməsini tədris edilən dərslərlə əlaqələndirmək düzgün olmaz: "Məsələyə bu mövqedən yanaşsaq, təkcə xarici dil deyil, digər fənlər üzrə də repetitorlara və əlavə kurslara üz tutanlar az deyil. Bu, daha çox ayrı-ayrı ixtisaslara hazırlaşmaq üçün həmin fənlər üzrə yazı və danışıq bacarıqlarını daha da təkmilləşdirmək və inkişaf etdirmək, ali təhsil müəssisəsinə və ya magistraturaya daxil olmaq istəyindən irəli gəlir. Bir də ki, xarici dillərin öyrənilməsini, təkcə ali məktəblərə daxil olmaq arzusu ilə əlaqələndirmək doğru olmaz. Xarici dil öyrənməyin faydaları barədə kifayət qədər deyilib və əlavə şərhə ehtiyac görmürəm. Təkcə ADU-da 20-dən artıq dil tədris olunur. Dövlət İmtahan Mərkəzinin rəsmi məlumatına əsasən növbəti illərdən etibarən magistr olmaq istəyənlərin xarici dil üzrə yazı və danışıq bacarıqları yoxlanılacaq. Magistratura səviyyəsinə qəbul imtahanında növbəti ildə də məntiqi təfəkkürün yoxlanılması, xarici dil və informatika üzrə test bloklarında qapalı və açıq tipli test tapşırıqlarından istifadə olunacaq. 2024-cü ildən etibarən keçiriləcək magistratura səviyyəsinə qəbul imtahanlarında isə xarici dil bloku üzrə yazı və danışıq bacarıqlarının yoxlanılması da nəzərdə tutulur. Göründüyü kimi hamı tərəfindən birmənalı qarşılanmasa belə, qəbulla bağlı tələblərin ildən-ilə sərtləşdirilməsi xarici dilin tədrisinə də yeni yanaşma tələb edir. Əks halda əlavə kurslara axının qarşısı alınmaz olacaq...".

**Çimnaz ŞAHLAR**



## Sinanın açıqlaması boşanmaya səbəb oldu

**Türkiyəli aktrisa Burcu Kıratlı müğənni həyat yoldaşı Sinan Akçıldan boşanmaq qərarına gəlib.**

Axşam.az Türkiyə mətbuatına istinadən xəbər verir ki, aktrisa Sinan Akçılın "Ayrı evlərdə yaşayırıq, problemlərimizi həll etməyə çalışırıq. Boşanma ilə də nəticələnə bilər, yenidən bir evdə də yaşaya bilərik" sözlərindən sonra boşanmaq üçün vəkilinə müraciət edib. Buna səbəb isə Kıratlının Sinanla aralarında olan vəziyyətin gizli qalmasını istəməsi olub.

*Qeyd edək ki, cütlük ötən ilin fevral ayında ikinci dəfə evlənib.*

**Elan**

Tahirova Kəmalə Saleh qızının adına verilmiş Abşeron gənclər şəhərciyi, Abşeron rayonu, Xırdalan qəs., bina 1, blok 43, 3 saylı mənzilin müqaviləsi itdiyi üçün etibarsız sayılır.

Cəfərli Vüqar Vəkil oğluna MSK tərəfindən verilmiş 20 saylı Nərimanov ikinci seçki dairəsi, 6 saylı DSK üzvü vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Park Azure MTK-nın Xətai rayonu A.Cəlilov küçəsi 27 A ünvanında inşa etdiyi yüksəkmərtəbəli yaşayış binasının 4-cü mərtəbəsində (1 avtomobil üçün qaraj kimi nəzərdə tutulmuş) 83 saylı Kərimova Nəcibə İzzət qızına aid qeyri yaşayış sahəsinə məxsus maliyyə arayışı itdiyi üçün etibarsız sayılır.

# Banklar dolların alış qiymətini qaldırıb

## Nazim Bəydəmirli: "Biz 1 dolların 1 manat 70 qəpik ətrafından çox da ciddi dəyişikliyini görməyəcəyik"

**Azərbaycanda banklar dolların alış qiymətini qaldırıb. Bu barədə iqtisadçı-ekspert Samir Əliyev bildirib. O qeyd edib ki, alış qiyməti Mərkəzi Bankın rəsmi məzənnəsi ilə eynidir. Lakin iqtisadçının sözlərinə görə, bankların bu addımı FED ilə əlaqəli deyil:**

"İlin sonu olanda banklarda və əhalidə özünüqoruma instinkti yaranır. Amma indi ilin əvvəlidir. Maraqlısı budur ki, satış bahalaşmayıb".

Bu xəbəri "Şərq"ə şərh edən iqtisadçı alim Nazim Bəydəmirli dolların alışının artma səbəbini açıqlayıb:

"Özəl sektorun, o cümlədən, bankların xarici borcların qaytarılması təqvim üzrə ilin sonuna və ilin başlanğıcına təsadüf etdiyindən bu vaxtlarda dolların alışında bahalaşma müşahidə olunur".

İqtisadçı dolların qiymətində artım olmayacağını düşünür: "Hesab edirəm ki, biz 1 dolların 1 manat 70 qəpik ətrafından çox da ciddi dəyişikliyini görməyəcəyik. Makroiqtisadi göstərici olaraq, Azərbaycan hökuməti dolların qiymətini 1 manat 70 qəpik müəyyən edib. Bütün gözləntilər də dolların stabil qalmasındadır. Həm də Azərbaycanda dolların kursu inzibati yollarla müəyyən edilir və ölkənin dövriyyə balansı müsbət olduğuna görə dolların bahalaşmasına heç bir obyektiv səbəb yoxdur. Zənnimcə, ciddi dalğalanma ola bilməz".

***"Manata neftin qiyməti 45 dollardan yuxarı olduğu şəraitdə heç bir təhlükə yoxdur"***

**N.Bəydəmirli vətəndaşları ajiotaj yaratmamağa çağırıb:**

"Eyni zamanda vətəndaşları sakitliyə və ajiotaja düşməməyə dəvət edirəm. Milli valyutada maaş alanların və digərlərinin tez-tələsik pullarını dollara dəyişməyinə ehtiyac yoxdur. Azərbaycanın



əsas valyuta gətirən sahəsi neft və qazdır. Onlarda da qiymət stabildir. Ümumiyyətlə, Azərbaycan valyutasına, neftin qiyməti 45 dollardan yuxarı olduğu şəraitdə heç bir təhlükə yoxdur".

**Çimnaz ŞAHLAR**

# İmtahan Mərkəzi doğru qərar verib

## Kompüter və İT ixtisasını seçənlər kimyadan deyil, informatikadan imtahan verəcəklər




**"İki ildən sonra ölkədə ilk dəfə kompüter və İT ixtisası seçənlər informatikadan imtahan verəcəklər".**

**Bu barədə "Multimedia" İnformasiya Sistemləri Texnologiyaları Mərkəzinin direktoru, Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz deyib. Ekspert bildirib ki, uzun illərdir bu ixtisası seçənlər kimyadan imtahan verirdi.** Nəhayət, uzun zaman davam edən ictimai müzakirələrdən, müraciətlərdən sonra bu il Dövlət İmtahan Mərkəzi qərar verib ki, 2023-cü ildə qəbul imtahanı informatikadan olacaq: "Bu qərar çox gec qəbul edilsə də, doğru və əhəmiyyətlidir. Ölkənin gələcək rəqəmsal mühitinə və transformasiya prosesinə, İT kadrların hazırlanmasına, rəqəmsal savadlılığın inkişafına bu qərar çox ciddi təsir edəcək. Ali məktəblərə qəbul olanların rəqəmsal səviyyəsi xeyli artacaq. Dövlət İmtahan Mərkəzi qərarın icrası istiqamətində hazırlıqlara başlayıb, işçi qrup formalaşdırıb. İnformatika fənni üzrə kurikulumun təlim nəticələrinin tələblərinə uyğun qəbul proqramı hazırlanıb. Proqramda prinsipial məqam ondan ibarətdir ki, mövzular Təhsil Nazirliyi tərəfindən informatika istiqamətində gerçəkləşdirilən müxtəlif layihələr əsasında deyil, doğru olaraq V-XI sinif dərsliklərində məzmun standartlarının reallaşdırılması üçün verilən mövzular əsasında hazırlanıb. 2023-cü ildə informatika fənni üzrə imtahan vermək istəyən abituriyentlər, müəllimlər, maraqlı tərəflər bu proqram əsasında imtahana elə indidən hazırlaşa bilərlər".

***Osman Gündüz: "Ali məktəblərə qəbul olanların rəqəmsal səviyyəsi xeyli artacaq"***

**O.Gündüz vurğulayıb ki, bütün maraqlı tərəflər, DİM, TN, məktəblər, şagirdlər, valideynlər və kurslar informatikadan imtahan hazırlığına ciddi hazırlaşmalıdır:** "İnformatikanın tədrisinin yaxşılaşması, müəllimlərin və şagirdlərin hazırlığının yüksəldilməsi üçün TN, məktəblər və valideynlər bu sahəyə resurslar ayırmalıdır. Təmayülləşmə inkişaf etdirilməlidir. Sınaq imtahanlarının sayı artırılmalıdır. Artıq sosial mediadan da görünür ki, valideynlər daha hazırlıqlı informatika müəllimlərinin axtarışına başlayıblar. Mövcud hazırlıq kursları, repetitorlar da bu məsələni gündəmdə saxlamalı, informatikadan hazırlıqlara başlamaq üçün zəruri olan addımlar atılmalıdır".

**İsmayıl**

# "Azercell Hackathon 2022" müsabiqəsinə qeydiyyat başladı!

**"Azercell Telekom" MMC-nin təşəbbüsü və təşkilatçılığı ilə keçiriləcək "Hackathon 2022"-nin qeydiyyatına start verildi. Bu sahədə bacarığını nümayiş etdirmək istəyən, kreativ həllərin yaradılmasına, komanda işinə, dinamik və davamlı öyrənməyə üstünlük verən iştirakçılar müsabiqəyə dəvət olunurlar.**

Müsabiqə 22-23 yanvar 2022-ci il tarixlərində keçiriləcək. "Hackathon"-da komanda şəklində iştirak zəruridir. Komandaların tərkibi, yarışmaçılara dair texniki tələblərlə tanış olmaq və qeydiyyatdan keçmək üçün aşağıdakı səhifəyə müraciət edə bilərsiniz:https://bit.ly/3tihQ6G Seçim mərhələsinə qeydiyyat üçün müraciətlərin son qəbul tarixi yanvarın 18-dir. Yarışmanın ilkin mərhələsinə tələblərə cavab verən komandalar keçəcək. Növbəti mərhələdə isə komandalar 36 saat davam edən yarışa qatılacaqlar. Tədbir boyu iştirakçılara Azercell-in peşəkar, çevik və yenilikçi ruhlu İT və İşə Qəbul komandaları dəstək olacaq. Müsabiqə zamanı qarşıya qoyulan tapşırığı tələb olunan meyarlara uyğun şəkildə və ən yüksək nəticə ilə yerinə yetirən komandalar qalib elan olunacaq. Tapşırıqlar komandalara yarışmadan öncə elan olunacaq. "Azercell Hackathon 2022" yarışmasında ən yüksək nəticə göstərən komandanı 3000 AZN, 2-ci yerin qalibini 1500 AZN dəyərində pul mükafatı, 3-cü yerin sahibini isə dəyərli hədiyyələr gözləyir. "Hackathon"-proqramçıların komanda şəklində birləşərək 24-72 saat davam edən müddətdə onlara verilmiş texniki tapşırığa uyğun müəyyən texnoloji həllin təqdim etdikləri tədbirlər silsiləsidir. "Hackathon"-dünyanın nəhəng İT şirkətləri - "Google", "Netflix", "Facebook", "HPE" və "Microsoft" kimi korporasiyalar tərəfindən tez-tez təşkil olunur.

"Bağlantını asanlaşdırır, həyatı daha dolğun edirik" strateji məqsədinə sadiq "Azercell Telekom" MMC uzun müddətdir ki, daima informasiya texnologiyaları sahəsinə dair təşəbbüsləri, gənc startapların inkişafına imkan yaradan layihələri dəstəkləyir. Şirkət istedadlı proqramçıların beynəlxalq arenaya çıxmasına, öz bizneslərini qurmasına, müştərilər qazanmasına yardım etməklə yanaşı, həm də ölkəmizdə informasiya




texnologiyaları sahəsinə olan marağı artırılması işinə töhfəsini əsirgəmir. İndiyədək Azercell-in təşəbbüsü və dəstəyi ilə informasiya kommunikasiya texnologiyalarının inkişafına yönələn çoxsaylı tədbirlər təşkil olunub. Bir neçə ildir ki, dövlət səviyyəsində keçirilən "Hackathon" müsabiqəsinin tərəfdaşı kimi çıxış edən Azercell gənc mütəxəssislərin öz ideyalarını inkişaf etdirməsinə kömək edən "Hackathon-AzIn", "AZCLOUD Hackathon", "womENcourage" kimi önəmli tədbirlərə də sponsorluq edib, "Qlobal Mu?dafiə Texnologiyaları Hakatonu" kimi beynəlxalq tədbirin rəqəmsal tərəfdaşı olub.

**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**

**KURSLAR**

**-MÜHASİBAT** (2 AY)
**-Mobil telefonların təmiri** (3 ay)
**-KOMPYUTER** (1-3 AY)
**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)
**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)
**-Dizayn** (3-6ay)
**-Masaj** (3 ay)
**-Biçmə - Tikiş** (3 ay)
**-Məktəb Psixologiyası** (12 ay)

**Tel: (012) 489-08-84**
**Mob: (070) 241-28-67**
**www.az-baku.com**

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, Nailə Cabarova, İlahə İbrahimova, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 93



## Yarpağı xatırladan avtobus dayanacağı hazırlanıb

Dayanacaq böyük bir sahə üçün sığınacaq rolunu da oynayır

**Böyük Britaniyanın Norviç şəhərində avtobus dayanacağı qeyri-adi dizaynı ilə fərqlənir.**

Azərtac xarici saytlara istinadla xəbər verir ki, dayanacaq dizayner Maykl Spayser tərəfindən hazırlanıb. Böyük bir yarpağı xatırladan dayanacaq, bunun sayəsində kifayət qədər böyük bir sahə üçün sığınacaq rolunu da oynayır.

Memarlar tərəfindən vestibül və sərnişin gözləmə zonasını örtmək üçün alüminium panellərdən və şəffaf materiallardan dəmir tent düzəldilib. Bu zaman həm də təbii ventilyasiya və bol gün işığının da qayğısına qalıblar.

## Boris Conson karantin qaydalarını pozduğu üçün üzr istəyib



**Böyük Britaniyanın Baş naziri Boris Conson ötən il 20 may tarixində karantin qaydalarını pozaraq "Dauninq-strit"in həyətindəki yığıncaqda iştirak etdiyini qəbul edib və bunun üçün üzr istəyib.**

APA-nın Britaniya bürosunun verdiyi xəbərə görə, Baş nazir bildirib ki, o, bunun iş yığıncağı olduğunu düşünüb və sadəcə 20 dəqiqəlik iştirak edib. Boris Conson yığıncaqda iştirak etmək yerinə, bütün işçilərə təşəkkür edərək onları binaya göndərməli olduğunu etiraf edib. Baş nazir milyonlarla insanın pandemiya zamanı əziyyət çəkdiyini, karantin qaydalarını təklif edən insanların isə qaydalara riayət etmədiyi üçün xalqın onlara olan qəzəbini başa düşdüyünü deyib və buna görə üzr istəyib. O, parlamentdəki çıxışı zamanı üzrxahlığını bir neçə dəfə təkrarlayıb və sonra onun istefasını tələb edən Leyboristlərin liderinə yığıncaq haqqında aparılan təhqiqatın nəticəsini gözləməyin lazım olduğunu bildirib.

## Lev Tolstoyun 99 yaşlı nəticəsi ABŞ-da vəfat edib

**Sergey Tolstoyun ölümünün dəqiq səbəbi hələ ki, bilinmir**



**Lev Tolstoyun 99 yaşlı nəticəsi Sergey Tolstoy ABŞ-ın Merilend ştatının Betesda şəhərində vəfat edib.**

**"The Washington Post" qəzeti bu barədə onun yaxın dostuna istinadla məlumat yayıb. Sergey Tolstoyun ölümünün dəqiq səbəbi hələ ki, bilinmir. Onun ürək-damar sistemində problemlərin olduğu məlum idi. Yazıçının nəticəsi son zamanlar görmə və eşitmə qabiliyyətinin pisləşməsindən əziyyət çəkirdi və insult keçirmişdi.**

## Pişiklərin qanında təhlükəli virus aşkarlandı



**Koronavirus pandemiyasının başlamasından çox əvvəl ABŞ-da ev pişiklərindən alınan qan nümunələrində SARS-CoV-2 reseptor bağlayan domenə (RBD) qarşı anticisimlər müəyyən olunub. Bu barədə Tennessi Universitetinin mütəxəssisləri elan edib.**

**Alimlərin fikrincə, bunu yalnız heyvanların başqa bir virusla təmasda olması ilə izah etmək olar, hansı ki, onun sünbül zülalı COVID-19 törədicinin oxşar zülalına o qədər bənzəyir ki, orqanizmin kross-reaktiv anti cisimlər istehsal etməsinə səbəb olub.**

**Alimlər onu da vurğulayıblar ki, insanlar üçün potensial təhlükəli virus hazırda ABŞ-da pişik populyasiyasında dövr edir.**

## Qadağan olunub

**Vaksin olunmayanlar metroya buraxılmayacaq**




**İtaliyada kovid vaksini vurdurmayanlar ictimai nəqliyyata buraxılmayacaq.**

**Medicina.az xəbər verir ki, ölkədə vaksin olunmayanlara qarşı məhdudlaşdırıcı tədbirlər başlayır.**

**10 yanvar tarixindən kovid setrifikatı olmayanlar avtobus, metroya buraxılmır.**

**Sertifikatı yaxın 3 ayda yoluxub sağalanlar da ala bilir. Eləcə də vaksin olunmayanlara restoran, kafe, idman zalı, muzey, otellərə və nikah mərasimlərinə girmək qadağan olunub.**

**Fevraldan yaşı 50-dən yuxarı hər kəs üçün vaksin məcburi olacaq.**



# Divar hörüb yolu kəsdi

## Yeşildağ əhaliyə dağ çəkir





Məlahət Rzayeva

**Türkiyənin Kayseri şəhəri Kocasinan bölgəsində yaşayan Mehmet Yeşildağ küçənin ortasına divar hörərək avtomobillərin də, insanların da yolunu kəsib.**

"Şərq" "Milliyet.com"a istinadən bildirir ki, qarşılarında divar görən sürücülər yollarını dəyişdirir, evlərinə getməli olan sakinlərsə məcbur qalıb divarı aşırlar. M.Yeşildağ iddia edir ki, yola düşən ərazi rəsmi qaydada onun mülkiyyətindədir. Mülkiyyətində olduğu ərazidə tikinti aparmağa kimsə mane ola bilməz. Yolun evinin qarşısından keçməsini istəmir, ona görə də yolun bir hissəsini divarla bağlayıb. Yolun bağlanması ictimai nəqliyyatla evinə gedənləri də çətinə salıb. Məktəbə gedən uşaqlar da divarı aşıb keçirlər. Məhəllə sakinləri yerli bələdiyyəyə şikayət edib. Kocasinan bölgəsi Tələt Paşa məhəllə muxtarı Yusuf Fıçıcılar deyib ki, M.Yeşildağ sakinlərin 40 ildir gedib-gəldiyi yolu kəsib. Deyir ki, guya, bələdiyyə divar hörmək üçün ona icazə verib. Bələdiyyə isə bunu inkar edir. Burda avtobus dayanacağı vardı. İndi sürücülər məcburdur avtobusu uzaq məsafədə saxlasın, bu da sakinləri narahat edir. Məhəllə muxtarı deyib ki, bələdiyyə də çarəsizdir. Və yol kəsənlə məhəllə sakinlərinin dil tapmalı olduğunu deyir: "Bizə deyirlər ki, gedin, onunla dil tapın. Çox çarəsiz qalmışıq".



## 4500 il əvvələ aid dəfn xiyabanı tapılıb

Həmin dövrdə bu torpaqlarda bol su mənbələri olub



**Səudiyyə Ərəbistanının rəsmi SPA agentliyinin məlumatına görə, arxeoloqlar krallığın ərazisində eramızdan əvvəl III minilliyə aid magistral yola bənzər qədim xiyaban aşkar ediblər.**

Azərtac xəbər verir ki, Qərbi Avstraliya Universitetinin (UWA) ekspertləri bu xiyabanın Ərəbistanın şimal-qərbində yaşamış qəbilələr tərəfindən tikildiyini müəyyən ediblər. Tapıntı Əl Ula Kral Komissiyasının nəzdində çalışan komanda tərəfindən "Holosen" jurnalında dərc edilib.

Sözügedən xiyaban ərazinin peyklə məsafədən zondlama, aşağı hündürlükdə aerofotoqrafiya, yer tədqiqatları, qazıntılar və radiometrik metodlardan istifadə etməklə aşkarlanıb. Tədqiqatlar göstərir ki, 4500 il əvvəl Ərəbistan yarımadasının böyük bir hissəsində dəfn mərasimləri bu xiyabandan keçməklə yerinə yetirilib. Həmin dövrdə bu torpaqlarda bol su mənbələri olub. Eyni zamanda, qədim insanlar bu ərazilərdən heyvandarlıq məqsədilə də istifadə ediblər.

Üç ilə yaxın tədqiqatlar aparan UWA-nın arxeoloji ekspedisiyasının tərkibinə dünyanın müxtəlif ölkələrindən 13 arxeoloq daxil olub və ərazinin konservasiyası layihəsi həyata keçirilib. Bu komanda ötən ilin avqustunda "Arabian Archeology and Epigraphy" jurnalında Xeybər vahəsinin asqı formalı məzarlarının eramızdan əvvəl 3-cü minilliyə aid olduğuna dair məqalə də yerləşdirib.

## Qonşu ölkədə 53 at güllələnib

Hadisə ilə bağlı cinayət işi açıb



**Altay diyarı polisi Petropavlovsk vilayətində naməlum şəxslər tərəfindən güllələnmiş 53 atın ölümü ilə bağlı cinayət işi açıb.**

Bu barədə Rusiya Federasiyası Daxili İşlər Nazirliyinin Altay diyarı üzrə Baş İdarəsinin mətbuat xidmətindən məlumat verilib.

"At ilxısının güllələnməsilə bağlı ixtisaslaşdırılmış istintaq-əməliyyat qrupunun yaradılması barədə göstəriş verilib. Hazırda polis əməkdaşları hadisənin bütün təfərrüatlarının müəyyən edilməsi istiqamətində bir sıra əməliyyat-axtarış tədbirləri həyata keçirirlər. Zəruri ekspertiza və araşdırmalar aparılır", - deyə mətbuat xidmətindən bildirilib. (oxu.az )

*Qeyd edək ki, hadisə ilə bağlı cinayət işi Rusiya Cinayət Məcəlləsinin 167-ci maddəsi (başqalarının əmlakını qəsdən məhv etmək və ya zədələmək) üzrə aparılır.*

## Bill Geyts "omikron"un faydalarından söz açıb



**"Omikron" ştammı sayəsində dünyadakı insanların çoxunda koronavirusa qarşı immunitet yaranacaq və ən az bir il qalacaq.**

Bunu "Microsoft" şirkətinin qurucusu Bill Qeyts "Twitter" səhifəsində yazıb. Onun sözlərinə görə, nəticədə COVID-19 mövsümi xəstəliklər sırasında yer alacaq. "Hər hansı bir ölkədə "Omikron" ştammı geniş şəkildə yayılarsa, orada bir il ərzində yoluxmaların sayında azalma müşahidə olunacaq və COVID-19 mövsümi qrip kimi müalicə ediləcək", - deyə Qeyts bildirib. "Microsoft" qurucusu onu da qeyd edib ki, "Omikron" ştammının bu və ya digər ölkədə yayılması həmin ölkənin səhiyyə sisteminə ciddi təzyiq göstərir. "Xəstəliyin ağır formalarının çoxu peyvənd olunmamış insanlarla bağlıdır", - deyə o vurğulayıb. Qeyts belə hesab edir ki, əvvəl-axır ildə bir dəfə koronavirusa qarşı peyvənd olunmağa gəlib çıxacağıq. Onun fikrincə, hazırda daha yoluxucu ştammın ortaya çıxacağı ilə bağlı hər hansı bir proqnoz yoxdur, bununla belə, onun yaranma ehtimalını istisna etmək də mümkün deyil.

## İsmayıllıda məktəbin cəmi 4 şagirdi var

Müəllimlər təhsil verməkdən imtina edir



**İsmayıllı rayonunun Qoydan kəndində yerləşən məktəb şəraitsiz vəziyyətdədir.**

Oxu.az xəbər verir ki, bu barədə sosial şəbəkədə məlumat paylaşılıb.

Bildirilib ki, 1 otaqdan ibarət olan məktəbin cəmi 4 şagirdi var. Şagirdlərə dərs keçən müəllim rayondan kəndə gedib-gəlir. Digər müəllimlər isə yolların bərbad vəziyyətdə olmasına görə təhsil ocağına gəlməkdən imtina edib. Payız və qış aylarında isə şagirdlərin vəziyyəti daha da qəlizləşir. Palçıqlı, qarlı yollar onların məktəbə getməsinə əngəl olur. İbtidai sinifi bitirənləri isə təbii ki, daha çətin günlər gözləyir.

Onlar təhsil almaq üçün başqa yerlərə üz tutmalı olacaqlar. Ən yaxın qonşu kəndə məsafə 5-6 kilometrdir. Hər gün eyni məsafəni qət etmək isə demək olar ki, qeyri-mümkündür.

*Qeyd edək ki, Qoydan Lahıc turizm zonasında yerləşir. Əhalisi 68 nəfərdir. Kəndə yay mövsümündə avtomobillə, qış mövsümündə isə Lahıc qəsəbəsindən sonra 6 km yolu piyada və ya atla getmək olar. İsmayıllı-Lahıc-Şamaxı turist marşrutları kəndin yaxınlığından keçir.*

## 18 yaşlı model koronavirusdan öldü



**Braziliyanın San-Paulo şəhərindən olan 18 yaşlı model Valentina Boskardin Mendes koronovirusdan vəfat edib.**

Axşam.az xarici mətbuata istinadən xəbər verir ki, modelin anasının sözlərinə görə, Valentina sağlam idi və o, tam olaraq vaksinasiyadan keçmişdi.

*Qeyd edək ki, Boskardin Mendes bazar ertəsi xəstəxanaya yerləşdirilmişdi. Koronavirusa yoluxan modeldə pnevmoniya yaranıb və ölümcül tromboz və ya qan laxtalanmasından əziyyət çəkib.*